

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 18 oktyabr 2023-cü il, çərşənbə / № 190 (6534). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik




# Deyirdim ki, gün gələcək...

## İlham Əliyev: Siz mənə “Xoş gəlmisiniz!” deyəcəksiniz və bu gün gəldi!

Bax səh. 2

## Vətən müharibəsinin 22-ci günü

### 18 oktyabr

İlham Əliyev
@azpresident

Azərbaycan Silahlı Qüvvələri qədim Xudafərin körpüsünün üzərində Azərbaycan bayrağını qaldırdılar. Eşq olsun Azərbaycan xalqına! Qarabağ Azərbaycandır!

Translate Tweet

4:45 PM · Oct 18, 2020 · Twitter for iPhone

• Birinci vitse-prezident Mehriban Əliyeva Füzuli şəhərinin və Füzuli rayonunun bir sıra kəndlərinin işğaldan azad edilməsi ilə bağlı rəsmi instaqram hesabında paylaşım edib.

• İşğaldan azad olunan Füzuli şəhərində Azərbaycan bayrağı qaldırılıb.

• Fövqəladə Hallar Nazirliyi Gəncədə düşmənin raket zərbələri nəticəsində dağılan binada axtarış-xilasetmə işlərinin yekunları barədə məlumat yayıb. Məlumata görə, dağıntılar altından xəsarət almış 53 nəfər və 13 cəsəd çıxarılıb.

• Cəbhə bölgəsindən yüz kilometrlərlə aralıda yerləşən Xızı rayonuna atılan raket Sitalçay qəsəbəsi ərazisində havada zərərsizləşdirilib.

# Hər şey Fransada “İnterkontinental” hotelindən başladı...

Bax səh. 4



# İkiqat tarix!

## 18 Oktyabr - müstəqilliyimizin və sərhədlərimizin bərpası günü

Bax səh. 4

# Türk Dövlətləri Təşkilatının yeni erası

Bax səh. 5

## 100 illik ədalətsizliyə son qoyuldu...

Sentyabrın 19-20-də baş tutmuş lokal antiterror tədbirləri Azərbaycanın suverenliyinin tam bərpası ilə nəticələndi. Bu tədbirlər regionda yeni siyasi və hərbi təhlükəsizlik mühiti formalaşdırdı. Azərbaycan dövləti 30 illik separatizmi darmadağın etdi, xuntanın çöküşünü reallaşdırdı. Bu gün tarixi ədalət öz yerini tapır - Azərbaycan qanunlarını pozan, seapartizm və fərqli cinayətlərdə ittiham olunan, özünü “Qarabağın prezidenti” adlandıran şəxslər ölkəmizin ədalət mühakiməsinin qarşısında cavab verir. Bu günlər Azərbaycanın şərəf tarixinin ən mühüm səhifələrindən birinə çevrilir. Oktyabrın 15-də Prezident İlham Əliyevin Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan bayrağını ucaltması bütövlükdə, xalqımız üçün böyük...

Bax səh. 2

## Azərbaycanın birgəyaşayış nümunəsi...

Sabitliyi, sülhü və təhlükəsizliyi təhdid edən ən mühüm amillərdən biri kimi meydana çıxmış diskriminasiya, ayrı-seçkilik dünya üçün əsl baş bəlasına çevrilməkdədir. Bütün qitələrdə, əksər ölkələrdə vəziyyət demək olar ki, yuxarı-aşağı az fərqlənir - insanlar dini və ya etnik mənsubiyyətinə görə təqib olunur, hətta XXI əsrdə rənginə və ya irqinə görə diskriminasiyaya məruz qalır. Belə bir mənzərənin fonunda Azərbaycanda hökm sürən tolerant mühit, multikultural həyat tərzi həqiqətən də nümunəvi model kimi çıxış edir. Xüsusi vurğulanmalıdır ki, Azərbaycanın tolerantlıq ənənəsi heç də yaxın bir və ya iki əsrə söykənmir - bu, tarixin özü ilə birgə inkişaf edən həyat tərzidir. Ölkəmizdəki bütün etnik azlıqlar daima dostluq və yaxın...

Bax səh. 3

## Ölkəmiz regional qaz habı layihəsində

Qarşılıqlı maraqlar əsasında tərəfdaşlıq münasibətlərinin qurulmasına böyük önəm verən Azərbaycanın yerləşdiyi coğrafiyada və daha geniş arealda rolu artır. İndiyədək regionda qlobal əhəmiyyət daşıyan bütün layihələrin təşəbbüskarı və ən fəal iştirakçısı məhz respublikamız olub. Ölkəmiz həmçinin Türkiyədə mavi yanacaq habı yaradılması ideyasını dəstəkləyir. İndiyədək bununla bağlı müxtəlif səviyyələrdə fikirlər ifadə olunub. Respublikamızın qardaş Türkiyənin moderatorluğu ilə yaradılacaq haba qoşulmaq niyyətində olduğunu həmçinin Rusiya rəsmiləri də təsdiqləyiblər. Bu barədə bir neçə gün bundan əvvəl Rusiya prezidenti Vladimir Putin danışıb. “Azərbaycan Türkiyədə qaz qovşağı layihəsində iştirak etmək arzusunu ifadə edib”...

Bax səh. 3

## Sülhə gedən yolda əsas daşı aradan qaldırdıq

44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsindən sonra Azərbaycanın ərazi bütövlüyü, bu ilin sentyabrnda isə Qarabağda keçirilən antiterror tədbirlərindən sonra suverenliyimiz təmin olunub. Antiterror tədbirləri nəticəsində dövlət suverenliyimizin tam bərpa olunması ümumilikdə regionda təhlükəsizliyin möhkəmlənməsi və sülhə nail olunması üçün yeni imkanlar yaradır. Dövlətimiz hələ Vətən müharibəsi başa çatandan sonra Cənubi Qafqaz regionunun sülh və əməkdaşlıq məkanına çevrilməsi üçün təşəbbüslərlə çıxış edib.

Azərbaycan həmişə sülh tərəfdarı olduğunu bəyan edir. Hazırda bölgədə sülhün təmin...

Bax səh. 5

## Dünya mediası Xankəndidən yazır!

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 15-də Xankəndiyə, həmçinin Qarabağın digər rayon və şəhərlərinə səfəri, orada ölkəmizin üçrəngli Bayrağını ucaltması və çıxışında səsləndirdiyi fikirlər dünya mediası tərəfindən geniş işıqlandırılıb.

Türkiyənin Anadolu Agentliyi, “TRT Haber”, “NTV”, Haber Global, “Hürruyet”, “CNN türk”, “İHA”, “Sözcü”, “Habertürk”, “YeniAkit”, “Yeniçağ”, “Sabah” və bir çox digər media qurumları tərəfindən yayımlanan xəbərlər “Xankəndidə Azərbaycan Bayrağı ucaldıldı”, “Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Bayrağını Xankəndidə və Xocalıda qaldırıb” kimi başlıqlarla verilib.

Materiallarda Azərbaycanın Qarabağdakı erməni...

Bax səh. 6

# İlham Əliyev: Siz mənə “Xoş gəlmisiniz!” deyəcəksiniz və bu gün gəldi!

# Deyirdim ki, gün gələcək...

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 17-də “Füzuli Şəhəri Günü”ndə Füzuli şəhərinə köçmüş sakinlər və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı tədbirdə çıxış edib.**







## Bu gün gəldi...

“Necə də gözəl bir gündür. Siz mənə “Xoş gəlmisiniz!” deyirsiniz. Mən işğal dövründə həm füzulililərlə, həm digər rayonlardan olan keçmiş köçkünlərlə görüşlərdə dəfələrlə deyirdim ki, gün gələcək, siz mənə “Xoş gəlmisiniz!” deyəcəksiniz və bu gün gəldi. Bu gün Füzulidə bayram günüdür, şəhər günüdür və eyni zamanda, Füzuli şəhərinin işğaldan azad olunmasının üçüncü ildönümüdür. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm, sizə cansağlığı arzulayıram” deyən dövlətimizin başçısı gənc füzulilərin öz torpaqlarına qayıtmasını böyük hadisə kimi qiymətləndirib. Prezident qeyd edib ki, bu, xalqımızın böyüklüyünü göstərir və bird aha sübut edir ki, biz öz doğma diyarımıza bağlı olan xalqıq.

Dövlətimizin başçısı füzulilərlə və digər rayonlardan olan keçmiş köçkünlərlə çoxsaylı görüşlərində, xüsusilə yeni şəhərciklərin açılışı tədbirlərində söylədiklərini xatırladıb: “Deyirdim ki, bu, müvəqqəti yaşayış yeridir. Biz çalışırıq və çalışacağıq ki, sizin yaşayış səviyyənizi yaxşılaşdıraq, həyatınızı müəyyən dərəcədə yüngülləşdirək, ancaq bu, müvəqqəti yaşayış yeridir. Torpaqlar azad olunandan sonra Füzulidə, Ağdamda, Zəngilanda, Qubadlıda, Laçında, Kəlbəcərdə, Cəbrayılda, Şuşada daha gözəl evlər tikiləcək, daha gözəl şərait yaradılacaq. Bax, bu gün gəldi, artıq bu, gerçəkdir, bu, reallıqdır. Füzulinin yeni siması göz oxşayır”.

## Bütün şəhərlərimiz Füzuli kimi olacaq

Bu gün həm Füzulidə, həm bütün başqa şəhər və kəndlərimizdə həyata keçirilən layihələrin dünya miqyasında şəhərsalma prinsiplərinin yeni qaydalarını təsbit etdiyini bildirən Prezident bunu beynəlxalq ekspertlərin də təsdiq etdiyini söyləyib. Azərbaycanda iki dəfə - Ağdamda və Zəngilanda Milli Şəhərsalma Forumu keçirildiyini xatırladan dövlətimizin başçısı layihələrin beynəlxalq təşkilatlar tərəfindən çox yüksək qiymətləndirildiyini deyib: “Doğrudan da burada yaşayış üçün ən gözəl şərait yaradılıb, həm binaların daxili quruluşu, həm mənzillərin daxili dizaynı, həm mərtəbəlilik prinsipi, binaların bir-birindən aralı olması, məsafə, hər şey gözlənilib. Yəni rahat yaşamaq üçün bütün infrastruktur, şərait var. Bizim bütün şəhərlərimiz, bax, Füzuli kimi olacaq. Çünki Füzulidə biz birinci şəhərsalma layihəsini icra edirik. Düzdür, laçınlılar füzulililərdən bir qədər tez öz doğma yurduna qayıtmışlar. Amma Laçın şəhərində ermənilər qanunsuz məskunlaşma apardıqları üçün orada binaların bəziləri qalmışdı və biz o evləri sadəcə olaraq, bərpa etdik, ən gözəl şərait yaratdıq. Deməli, Laçının əvvəlki şəhərsalma mənzərəsi yerindədir. Burada isə şəhər tamamilə yenidən qurulur”.

## Heç vaxt işğalı, əzab-əziyyəti unutmamalıyıq

İşğal zamanı torpaqlarımızda törədilən vandallıqdan bəhs edən dövlətimizin başçısı: “Füzulinin timsalında, eyni zamanda, bütün dünya, hətta bunu görmək istəməyənlər görürlər və görməlidirlər ki, erməni vəhşiliyi nədən ibarətdir. Biz uzun illər Qarabağ dərdimizin həqiqətlərini dünya birliyinin diqqətinə çatdırmağa çalışanda bəziləri inanmırdı, elələri də var idi ki, inanmaq istəmirdi. Bizim əlimizdə o qədər də böyük sübutlar yox idi. Biz bilirdik ki, hər şey dağıdılıb, viran qoyulub, ancaq bu dərəcədə hətta biz təsəvvür edə bilmirdik. Çünki işğalçı dövlət heç kimi o vaxt bu bölgəyə buraxmırdı, qadağan etmişdi. Nə üçün? Çünki buraya gələn hər bir insan görəcəkdi, erməni vəhşiliyi nədən ibarətdir. Onun təzahürləri hər yerdə görünür” - deyib.

Füzuli azad olunanda Bayrağımızı qaldırmaq üçün bir hərbi hissədən başqa bir salamat bina tapa bilmədiyimizi xatırladan Prezident həmin hərbi hissənin həyətindəki dirəkdən bayrağımızı ucaltdığını söyləyib. “Hər bir azərbaycanlı kimi adamın ürəyi ağrıyırdı, məəttəl qalırdı, dəhşətə gəlirdi insan ki, bu dərəcədə düşmənçiliyin mənbəyi nədir?! Axı biz ermənilərə nə etmişdik?! Biz onlarla yanbayan yaşamışdıq. Onlar bizim çörəyimizi yeyiblər, bizim hesabımıza onlar üçün şəhərlər, kəndlər qurulmuşdu, infrastruktur yaradılmışdı. Sovet dövründə bütün bu işlərin hamısı Azərbaycan büdcəsi hesabına görülmüşdür. İnsanlara zülm etmək, onlara işgəncə vermək, Azərbaycan xalqına qarşı etnik təmizləmə aparmaq, görünür, onların ürəyində olan o qara ləkələr idi. Biz onu bilməmişik o vaxt. Biz bir növ sadəlövh olmuşuq. Ona görə mən deyirəm, biz heç vaxt işğalı, əzab-əziyyəti unutmamalıyıq. Gənc nəsil də bunu bilməlidir. Bu gün bu məktəbdə oxuyan uşaqlar da bunu bilməlidir. Bilməlidir ki, bizim xalqımız hansı çətin sınaqlardan çıxıb, əyilməyib, sınmayıb, özünə inanıb, orduсуna inanıb. İnanıb ki, bu gün gələcək, biz burada durub sizinlə bu bayram gününü qeyd edəcəyik”, - deyə dövlətimizin başçısı sözlərinə əlavə edib.

## İlin sonunadək...

Füzulinin tamamilə yenidən qurulduğunu bildirən Prezident sarağagün Füzulidə birneçə önəmli obyektin təməl qoyma mərasiminin keçirildiyini bəyan edib: “Mənə dünən məlumat verildi ki, 800-dən çox insan artıq yerləşib. İlin sonuna qədər burada təqribən 2 minə yaxın insan yaşayacaqdır. Böyük Qayıdış Proqramımızın birinci mərhələsinin sonunda - 2026-cı ilin sonunda 22 min insan Füzuli rayonunda yaşayacaq, bütövlükdə isə Qarabağ və Şərqi Zəngəzurda 140 min insan yaşayacaq. Yəni, bu, belə demək mümkündürsə, ən minimal göstəricidir. Mən əminəm ki, bundan daha böyük sayda insanlar məskunlaşacaq, çünki birincisi, bizim buna gücümüz çatır, iradəmiz var, Böyük Qayıdış Proqramı qəbul olunub, uğurla icra edilir, artıqlaması ilə icra edilir və əsas amil odur ki, bizim keçmiş köçkünlər səbirsizliklə o günləri gözləyirlər. Məsələn, mən həm Zəngilanda, həm Laçında uşaqlarla söhbət əsnasında maraqlanırdım. Yəni, Bakıda doğulmuş, böyümüş, necə deyərlər, böyük şəhərin ab-havasına öyrəşmiş uşaq, yeniyetmə gəlib indi bir qədər uzaqda yerləşən şəhər və kənddə necə yaşayır? Onlar ürəkdən deyirdilər ki, bu, böyük xoşbəxtlikdir. Bu, o cümlədən sizin, yəni, böyük nəslin tərbiyəsidir”.

## Bu mövzu bağlandı!

Gənc nəslin yaddaşından Qarabağ mövzusunun silinməsinə imkan verilmədiyini yüksək qiymətləndirən Prezident qeyd edib ki, bunu bizə aşılamaq istəyən bir çox ölkələr, qüvvələr var idi, yəni barışmaq lazımdır, Ermənistanla əməkdaşlığa başlamaq lazımdır. Dövlətimizin başçısı bildirib: “Bir çoxları təkrarlayırdılar ki, münaqişənin hərbi həlli yoxdur. Biz göstərdik ki, var və bu yaxınlarda bir daha göstərdik, bu mövzu bağlandı! Qarabağ münaqişəsi mövzusu bağlandı birdəfəlik! Separatçıların kitabı bağlandı birdəfəlik! Bu, böyük xoşbəxtlikdir.

Prezident məşğulluq imkanlarına da diqqət çəkib və bildirib ki, bütün layihələr icra edilərkən burada yerləşən insanların məşğulluq imkanları da əsas məsələ kimi nəzərdə tutulub: “Aidiyyəti dövlət qurumları bu məsələ ilə də bağlı ciddi addımlar atır ki, burada yerləşən insanların məşğulluq imkanları da olsun. Şəhərin özünəməxsus məşğulluq imkanları var. Əlbəttə ki, kəndlərdə yerləşən və yerləşəcək vətəndaşlar, ənənəvi məşğulluqla məşğul olacaqlar, dövlət isə öz tərəfindən onlara kömək göstərəcək - texnika ilə, mal-qara ilə, bütün lazımi vasitələri onlara təqdim etməklə. Özünüməşğulluq proqramı icra ediləcək ki, burada həyat qaynasın. Əminəm ki, müəyyən müddətdən sonra Qarabağ Azərbaycan iqtisadiyyatında bir təkanverici qüvvəyə çevriləcək. Çünki bizim iqtisadiyyatımızın, bax, buradan qalxması ümumi inkişafa da böyük töhfə olacaqdır”.

## Dövlətin nə qədər gücü olsa...

“Bu gün bu bayram gününü qeyd edərkən, əziz şəhidlərimizin xatirəsinə hamımız bir daha öz dərin ehtiramımızı ifadə edirik” deyən dövlətimizin başçısı Xankəndinin əsas, mərkəzi meydanında xalqa müraciət edərkən bu günə görə onlara borclu olduğumuzu söylədiyini xatırladıb: “Bu, həqiqətdir. Dövlətin nə qədər gücü olsa, nə qədər silahı olsa, nə qədər düzgün hərbi əməliyyatlar planlaşdırılsa da, Qələbəni əldə edən əsgərdir, zabitdir. O gedir, o, sinəsini qabağa verir, o, ölümə gedir və Bayrağı da qaldıran odur. Onların qəhrəmanlığı bizim yaddaşımızdan heç vaxt silinməməlidir və silinməyəcək. Bu gün onların ruhu şaddır ki, biz buradayıq, siz buradasınız və nə qədər acı olsa da, onların yaxınları üçün, doğmaları üçün bir təsəlli var. O da odur ki, onlar canlarını fəda edərək tarixi Zəfər çalıblar. Biz Birinci Qarabağ müharibəsində 15 minə yaxın şəhid verdik, amma torpaqlar da getdi. Əlbəttə, həlak olan hər bir insan əvəzolunmazdır. Ancaq İkinci Qarabağ müharibəsində əməliyyatlar elə planlaşdırılırdı ki, itkiləri minimuma endirək və buna da nail olduq”.

Gənc nəslin də daim bu ruhda tərbiyə almalı olduğunu bir daha vurğulayan Prezident bildirib ki, onların qəhrəmanlığı unudulmazdır, belə ağır coğrafi məkanda bu tarixi Qələbəni qazanmağın misli-bərabəri yoxdur. “Düşmən bütün yüksəklikləri götürmüşdü. Buradan istənilən istiqamətə getsən görərsən ki, hər təpədə demək olar ki, onların postları, döyüş məntəqələri, bir neçə müdafiə xətti, tikanlı məftil və minalar, bunu yarmaq, atəş altında qabağa getmək nə qədər böyük cəsarət tələb edir. Bu, bəlkə də dünya hərb tarixində olmayıb. Olubsa, qoy, bizə desinlər harada olub. Olmayıb, bunu Azərbaycan xalqı göstərmişdir. Biz işğal dövründə elə gənc nəsil yetişdirdik ki, onlar Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdilər” - deyə dövlətimizin başçısı fikirlərinə əlavə edib.

Sonra dövlətimizin başçısı tədbir iştirakçıları ilə xatirə şəkilləri çəkdirdi, onlarla söhbət etdi.

## 20-30 ölkə beynəlxalq ictimaiyyət sayıla bilməz

Dövlətimizin başçısı söhbət əsnasında Füzulidə, Qarabağın digər bölgələrində və Şərqi Zəngəzurda yerləşən şəhərlərdə gedən genişmiqyaslı işlərdən söz açıb. Prezident qeyd edib ki, bunun mənbəyi də Azərbaycan mənbəyidir, yəni, biz heç kimdən bir manat kömək istəməmişik: “Sağ olsun özbək qardaşlarımız gözəl məktəb tikdirdilər və qazax qardaşlarımız da indi Yaradıcılıq Mərkəzini inşa edirlər. Ondan başqa bizə bir dənə də mismar da hədiyyə edilməyib. Biz bu illər ərzində həm iqtisadiyyatı qurduq, həm ehtiyatlar yığdıq. Nə üçün? Bilirdik ki, bu gün gələcək, o vəsait bizə lazım olacaq və biz haraya xərcləyirdik - orduya. Birinci yerdə ordu xərcləridir, ikinci təhsil xərcləridir. Həmişə bizim büdcəmizdə, bu iki əsas prioritet var idi. İndi ordu xərclərinə biz yenə də vəsait ayırmalıyıq. Çünki yumruq daim yerində olmalıdır. Ancaq, eyni zamanda, indi vəsaitin əsas hissəsi Qarabağın bərpasına gedir.

Ona görə heç kimdən asılı deyilik, heç kimdən heç nə istəmirik. Ona görə bəlkə də bəzi böyük dövlətlər bizdən narazıdırlar. Çünki onlar öyrəşiblər ki, gəlsinlər onların qabağında baş əysinlər, o da icazə versin, verməsin. Bəziləri hesab edirdilər ki, biz antiterror tədbirlərini apararkən heç kimdən soruşmamışıq. Yəni biz kimdən soruşmalıyıq?! Nəyi soruşmalıyıq?! Bəziləri indi deyirlər ki, biz beynəlxalq ictimaiyyəti aldatmışıq. Bu da qəribədir ki, bir qrup ölkə özünü beynəlxalq ictimaiyyət sayır. Axı, beynəlxalq ictimaiyyət deyəndə, 200-dən çox ölkə var, 20-30 ölkə beynəlxalq ictimaiyyət sayıla bilməz. Onlar elə öyrəşiblər, özlərindən başqa heç kimi ictimaiyyət saymırlar və belə bir ittiham indi irəli sürülür ki, biz beynəlxalq ictimaiyyəti aldatmışıq, antiterror tədbirləri keçirməklə onları aldatmışıq. Bu, çox zərərli məntiqdir. Biz öz doğma torpağımızda suverenliyi bərpa etmişik haqlı olaraq, bütün norma və prinsiplərə, beynəlxalq müstəvidə təsbit olunan prinsiplərə uyğun şəkildə. İndi bizi ittiham etməyə heç kimin haqqı yoxdur. Düzdür, cəhdlər var, yəqin ki, siz də izləyirsiniz, olub və olacaq”. Yolumuza davam edəcəyimizi deyən dövlətimizin başçısı vurğulayıb ki, doğma torpaqlarımızı yenidən quracağıq. “Buradan o dağlara baxanda belə bir gözəl mənzərə açılır, kənd təsərrüfatı üçün çox yaxşı imkanlar var. Yəqin ki, ilin sonunda Köndələnçay su anbarları artıq istifadəyə veriləcək. İki gün əvvəl Sərsəng su anbarının üstündə idim. Onu da atam o vaxt inşa etdirib”- deyən Prezident bildirib ki, bunda məqsəd yüz min hektar sahə, altı rayon - azərbaycanlıların yaşadıqları rayonlar su ilə təmin edilməsi olub. “Amma ermənilər nə etdilər, suyumuzu kəsdilər. Qışda açırdı ki, bütün yeri su bassın, yayda kəsirdi. Bax, erməni xisləti budur. Onu görsünlər, bu gün onların yanında yer alanlar, qoy görsünlər onlar nə ediblər. Biz indi bir kanal çəkmişik, ikinci sağ kanal da çəkiləcək, yəqin ki, maksimum ilyarım ərzində. Biz 100 min hektar torpağa su verəcəyik. İndi suyumuza da sahib olduq. Bizim su mənbələrimizin 25 faizi Qarabağ və Kəlbəcər-Laçın zonasında formalaşır. İndi Köndələnçay qayıtdı, Sərsəng, Suqovuşan qayıtdı, Xaçınçay qayıtdı, Həkəri suyu, indi Zabuxçay su anbarı inşa edilir, bir ilə hazır olacaq”- deyə Prezident fikirlərinə əlavə edib.

# 100 illik ədalətsizliyə son qoyuldu...



Sentyabrın 19-20-də baş tutmuş lokal antiterror tədbirləri Azərbaycanın suverenliyinin tam bərpası ilə nəticələndi. Bu tədbirlər regionda yeni siyasi və hərbi təhlükəsizlik mühiti formalaşdırdı. Azərbaycan dövləti 30 illik separatizmi darmadağın etdi, xuntanın çöküşünü reallaşdırdı. Bu gün tarixi ədalət öz yerini tapır - Azərbaycan qanunlarını pozan, seapartizm və fərqli cinayətlərdə ittiham olunan, özünü “Qarabağın prezidenti” adlandıran şəxslər ölkəmizin ədalət mühakiməsinin qarşısında cavab verir. Bu günlər Azərbaycanın şərəf tarixinin ən mühüm səhifələrindən birinə çevrilir. Oktyabrın 15-də Prezident İlham Əliyevin Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan bayrağını ucaltması bütövlükdə xalqımız üçün böyük qürurverici anlar yaşatdı. Bu, bizim qələbəmiz, suverenliyimizin bərpası ilə yanaşı, həm də tarixi ədalətin bərpası, tarixi ədalətin öz yerini tapması idi. Prezident İlham Əliyevin apardığı uğurlu xarici-daxili siyasət 100 illik tarixi ədalətsizliyə son qoydu...

**Oynanılan oyunlar...**

Qarabağın taleyi olduqca keşməkeşli olub - tarixin bir sıra dönəmlərində münaqişə və müharibələrə şahid olan bu tarixi məkan XX əsrin ikinci onilliyindən sonrakı dövrdə adı kimi qara günlər yaşamağa məhkum edildi. 1920 - ci ildə Xalq Cümhuriyyətinin süqutunun ardından, Azərbaycan SSRİ tərkibinə qatıldı. Həmin dövrdə erməni daşnaklarının həm siyasi, həm də hərbi birləşmələri söykəndikləri böyük güclərin dəstəyi sayəsində öz çirkin niyyətlərini biruzə verməyə başladılar. Qısa zaman kəsiyində Azərbaycana qarşı ərazi iddiaları boy göstərdi - yeni qurulmuş Ermənistan SSR-inin əraziləri məhz Azərbaycanın tarixi torpaqları sayəsində böyüdülürdü. Bu işdə sapı özümüzdən olan baltalar - Əliheydər Qarayev və onun kimi daşnak xarakterli, Moskvanın rəğbətini qazanmaq üçün bütün yollara əl atanların da “zəhməti” danılmaz idi. Həmin dövrdə başda ermənilər olmaqla qaragüruh daha çox Qarabağa fokuslanmışdı - 1921-ci il iyul ayının 4-də Qafqaz bürosu plenumunun axşam iclasında RKP MK üzvü Stalinin və büro üzvlərinin (Orconikidze, Maxaradze, Myasnikov, Nazarapetyan, Oraxelaşvili və Fiqatnerin) iştirakı ilə Qarabağın gələcək taleyi müzakirə edilir. Burada Qarabağ məsələsinə iki baxış: 1) Qarabağı Azərbaycan hüdudunda saxlamaq; Bütün əhalinin, erməni və azərbaycanlıların iştirakı ilə Qarabağda sorğu keçirmək, 2) Qarabağın Dağlıq hissəsini Ermənistanın tərkibinə daxil etmək; sonra sorğunu ancaq Dağlıq Qarabağda keçirmək səsə qoyulur. Plenumda meydana çıxan iki baxışa iştirakçıların səsverməsindən sonra, nəticədə qərara alınır: “Dağlıq Qarabağı Ermənistan SSR-in tərkibinə daxil etmək, sorğunu ancaq Dağlıq Qarabağda keçirmək”.

**Qarabağ “muxtar” oldu...**

N.Nərimanov qərarla razılaşmır, bəyənatla çıxış edərək deyir: “Azərbaycan üçün Qarabağ məsələsinin zəruriliyini nəzərə alaraq onun RKP MK-nın qəti qərarına keçirilməsini vacib hesab edirəm. Mən bircə gün də qoymaram Qarabağ erməni tapdağının altında qalsın. Mən Qarabağı bu gecə ya qaytaracağam, ya da başqa cür həll edəcəyəm!”

Ertəsi gün, yəni 5 iyul 1921-ci ildə RKP MK Qafqaz bürosu plenumu iclasında eyni tərkibli iştirakçılar Qarabağ məsələsini müzakirə edir, səsvermənin nəticəsi olaraq qərara alınır: “Müsəlmanlar və ermənilər arasında milli (sülhün) asayişin vacibliyinin və Yuxarı, həm Aşağı Qarabağın Azərbaycanla daimi olan Şuşa şəhəri inzibati mərkəz olmaqla Dağlıq Qarabağa geniş vilayət muxtariyyatı verilməklə, o, Azərbaycan SSR-in hüdudlarında saxlanılsın.

Beləliklə, 1923-cü il iyulun 7-də Azərbaycan Sovet Sosialist Respublikasının tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqda dekret qəbul edildi. Onu da qeyd edək ki, bu barədə tövsiyə qərarı 1921-ci ildə Rusiya K(b)P-nin Qafqaz Diyar Bürosu tərəfindən qəbul olunmuşdur. Bu məsələ də, eləcə də 1923-cü ilin iyulunda Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldıqdan sonra Xankəndinin adının dəyişdirilib Stepanakert adlandırılması da onu təsdiq edir ki, bölgədə həmişə erməniləşdirmə siyasəti aparılıb.

## 1923-cü ildə verilən əsassız qərara 2023-cü il cavabı...

**Bu, 100 ilin tarixidir...**

Bəli, lokal antiterror tədbirləri nəticəsində Xankəndi, Xocalı və bütövlükdə, Qarabağa nəzarət bərpa olundu. Hələ Sovet İttifaqının qurulduğu ilk illərdə Qarabağ üzərindən oynanılan oyun 100 ildən sonra iflasa uğradı. Xankəndi şəhərində dövlət bayrağımızı ucaldan Prezident İlham Əliyev öz tarixi çıxışında bildirdi ki, Azərbaycan torpağında heç bir tarixi, coğrafi və siyasi əsası olmayan Dağlıq Qarabağ Muxtar Vilayəti də 100 il bundan əvvəl - 1923-cü ildə yaradılmışdır: “Bu, 100 ilin tarixidir. Görün, bu 100 il ərzində xalqımız nə qədər əzab çəkib, tarix bizi nə qədər sınağa çəkib. Əyilmədik, sınmadıq, o boyda böyük faciə ilə təkbaşına üz-üzə qalmışdıq, heç kim bizim yanımızda durmadı. Torpaqlarımız işğal altına düşəndə heç bir ölkə arxamızda dayanmadı, heç mənəvi dəstək də göstərmədilər. Bütün əsas güclər Ermənistanın arxasında idi və bugünkü tarix onu bir daha göstərir”.

Bəli, 100 ildən sonra Müzəffər Ali Baş Komandan tarixi ədaləti bərpa etdi. Bu gün Azərbaycan xalqı özünün tarixi torpaqlarına qovuşmanın verdiyi böyük sevinci yaşayır...

*P.İSMAYILOV*

# Azərbaycanın birgəyaşayış nümunəsi...

**Sabitliyi, sülhü və təhlükəsizliyi təhdid edən ən mühüm amillərdən biri kimi meydana çıxmış diskriminasiya, ayrı-seçkilik dünya üçün əsl baş bəlasına çevrilməkdədir. Bütün qitələrdə, əksər ölkələrdə vəziyyət demək olar ki, yuxarı-aşağı az fərqlənir - insanlar dini və ya etnik mənsubiyyətinə görə təqib olunur, hətta XXI əsrdə rənginə və ya irqinə görə diskriminasiyaya məruz qalır. Belə bir mənzərənin fonunda Azərbaycanda hökm sürən tolerant mühit, multikultural həyat tərzi həqiqətən də nümunəvi model kimi çıxış edir.**
**Xüsusi vurğulanmalıdır ki, Azərbaycanın tolerantlıq ənənəsi heç də yaxın bir və ya iki əsrə söykənmir - bu, tarixin özü ilə birgə inkişaf edən həyat tərzidir. Ölkəmizdəki bütün etnik azlıqlar daima dostluq və yaxın qonşuluq münasibətləri əsasında birgəyaşayış nümunəsi formalaşdırıblar. Müasir dövrümüzdə isə bu məsələ daha qabarıq şəkildə özünü biruzə verib - Azərbaycanın millətlərarası münasibətlər sahəsində siyasəti xalqımızın xoş niyyəti, tarix boyu formalaşan ənənələri və ölkəmizin bugünkü müsbət mənzərəsi nəzərə alınmaqla müəyyənləşdirilib. Ölkəmizin mənzərəsi bu gün də milli-dini zəmində rəngarəngliyi ilə fərqlənir. Eyni zamanda, hüquqi dövlət olan Azərbaycanda qanun bu bərabərliyin əsas təminatçısı və qarantıdır. Azərbaycan dövləti öz vətəndaşının hüquqlarını bərabər, heç bir təsirə və ya ayrı-seçkiliyə məruz qalmadan tanıyır, qiymətləndirir...**

## Ermənilər Azərbaycanda hər zaman sülh şəraitində yaşayıb

### Nəinki Xankəndidə...

Qeyd etdiyimiz kimi, tolerantlıq bizim həyat tərzimiz olub. Bu gün Qarabağı öz xoşu, öz arzusu ilə tərk edən erməni əhalisi də vaxtilə bu mühitin tərkib hissəsi kimi çıxış edib. XX əsrin 80-ci illərinə qədər Azərbaycan torpaqlarında yaşayan ermənilər bütün hüquqlardan yararlanıb, onlara qarşı hər hansı bir ayrı-seçkilik edilməyib. Sadəcə olaraq, 80-ci illərin sonunda erməni millətçilərinin Qarabağla bağlı məkrli planları başlayıb. Bundan sonra azərbaycanlılara qarşı etnik təmizləmə aparılıb və azərbaycanlılar öz doğma yurd yuvalarından qovulublar.

Amma həmin dövrə qədər Qarabağda tolerant mühit hökm sürüb - bu, faktdır. Prezident İlham Əliyev Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan bayrağının ucaldılması ilə bağlı çıxışında qeyd edib ki, vaxt var idi burada azərbaycanlılarla ermənilər dostluq şəraitində yaşamışdır: "Vaxt var idi nəinki Xankəndidə, Qarabağda, Bakıda, Gəncədə, İrəvanda, Göyçədə, Zəngəzurda, Dərələyəzdə, Basarkeçərdə azərbaycanlılar və ermənilər dostluq şəraitində yaşamışlar. Mən o illəri xatırlayıram və xüsusilə Heydər Əliyev sovet Azərbaycanında rəhbərliyə gələndən sonra Qarabağda o vaxta qədər olmuş bəzi millətçi qüvvələr tamamilə kənara çəkilmişdi. Düz 18 il. 1969-cu ildən 1982-ci ilə qədər bir dənə də xoşagəlməz hala rast gəlinməmişdi. Mən xatırlayıram, atamla birlikdə burada olmuşam. O ab-havanı mən xatırlayıram. Burada, sözün əsl mənasında, səmimi bir ab-hava şəraitində təmaslar var idi, birgə işlər görülürdü".

Dövlət başçısı qeyd edib ki, insanlar burada yaxşı yaşayırdı: "Heç bir ayrı-seçkilik, diskriminasiya olmamışdır. Bu sözlərimi təsdiq etmək üçün bir misal gətirə bilərəm, o vaxt Dağlıq Qarabağ Muxtar Vilayətinin partiya komitəsinin doqquz nəfərdən ibarət büro üzvü var idi. Onlardan səkkizi erməni, biri azərbaycanlı idi, o da Şuşa Şəhər Partiya Komitəsinin birinci katibi. Yaxşı, əgər ayrı-seçkilik var idisə, onda bax, gətirdiyim misal nəyi göstərir? Birinci katib erməni, icraiyyə komitəsinin sədri erməni, bütün digər vəzifəli şəxslər, burada heç bir ayrı-seçkilik yox idi. Azərbaycanda erməni dilində qəzet dərc edilirdi, yəni o illərdə olub və bilirsiniz biz o illəri də kənara qoya bilmərik. Əksinə, o illəri xatırlayanlar o xatirələri gənc nəsillə bölüşsünlər".



### Reinteqrasiya proqramına əsasən...

Bu gün ermənilərin Azərbaycan torpaqlarında yaşamasına heç bir əngəl yoxdur - reinteqrasiya proqramı təqdim olunub və bu proqramda əksini tapan bütün məsələlər reallığı əks etdirir. Reinteqrasiya Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi çərçivəsində Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və beynəlxalq öhdəlikləri əsasında həyata keçirilir. Etnik, dini və ya dil mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə, o cümlədən hər kəsin təhlükəsizliyinə təminat verilir. Azərbaycanın Prezident Administrasiyasının məsələ ilə bağlı açıqlamasında da bildirilir ki, hüquqi və idarəetmə sahəsi üzrə inteqrasiya özündə bir sıra məsələləri ehtiva edir. Erməni sakinlərin yaşadıqları ərazilərdə idarəetmə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri vasitəsilə həyata keçirilir. Sakinlər xüsusi nümayəndəliklərin işinə cəlb oluna bilər. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, seçkilər vasitəsilə bələdiyyələr formalaşdırılır. Sakinlərin vətəndaşlıq məsələləri Azərbaycan Respublikasının Konstitusiyasına və qanunvericiliyinə uyğun olaraq, müvafiq prosedurlar əsasında həyata keçirilir.

Eyni zamanda, sakinlərin öz mədəniyyətini, etnik-mədəni xüsusiyyətlərini qorumaq və inkişaf etdirmək hüququ təmin edilir. Dini etiqad azadlığı, mədəni və dini abidələrin mühafizəsi təmin olunur. Erməni dilinin istifadəsinə imkan yaradılır. Qanunun aliliyinin təmin olunduğu ölkəmizdə hər bir vətəndaşı dövlətin inkişafına öz töhfəsini verməlidir. Bunun üçün isə qanunlara tabe olmaq, müvafiq hüquqlardan yalnız və yalnız dövlətin inkişafı üçün istifadə etmək gərəkdir. Azərbaycan dövləti hər zaman birgəyaşayış nümunəsi kimi qeyd olunub. Bu gün də eyni ənənəni yaşadırıq...

*SADİQ*

# Ölkəmiz regional qaz habı layihəsində

**Qarşılıqlı maraqlar əsasında tərəfdaşlıq münasibətlərinin qurulmasına böyük önəm verən Azərbaycanın yerləşdiyi coğrafiyada və daha geniş arealda rolu artır. İndiyədək regionda qlobal əhəmiyyət daşıyan bütün layihələrin təşəbbüskarı və ən fəal iştirakçısı məhz respublikamız olub. Ölkəmiz, həmçinin Türkiyədə mavi yanacaq habı yaradılması ideyasını dəstəkləyir. İndiyədək bununla bağlı müxtəlif səviyyələrdə fikirlər ifadə olunub. Respublikamızın qardaş Türkiyənin moderatorluğu ilə yaradılacaq haba qoşulmaq niyyətində olduğunu, həmçinin Rusiya rəsmiləri də təsdiqləyiblər. Bu barədə bir neçə gün bundan əvvəl Rusiya prezidenti Vladimir Putin danışıb. "Azərbaycan Türkiyədə qaz qovşağı layihəsində iştirak etmək arzusunu ifadə edib". Bunu isə Rusiya baş nazirinin müavini Aleksandr Novak bildirib. A.Novakın sözlərinə görə, digər ölkələr də layihəyə maraq göstərir. "Bu həm Türkiyənin, həm də Rusiyanın böyük maraq göstərdiyi bir layihədir. Maraq göstərən başqa ölkələr də var. Məsələn, Azərbaycan da layihədə iştirak etməyə hazırdır", - deyə Rusiya hökumətinin təmsilçisi vurğulayıb.**

### Qardaş Türkiyə üçün yeni fürsətlər

Türkiyədə mavi yanacaq habı yaradılması ideyası Rusiya prezidenti Vladimir Putindən gəlib. O, 2022-ci ilin oktyabrında Türkiyədə qaz habının yaradılmasını təklif edib. Bu təklif qardaş ölkədə müsbət qarşılanıb. 2023-cü ilin aprelində Türkiyə qanunvericiliyinə habın fəaliyyəti üçün zəruri olan dəyişikliklər edilib. Yayda isə Rusiyanın "Qazprom" şirkəti qaz habı layihəsinə dair yol xəritəsini Türkiyə tərəfinə təqdim edib. Rusiyanın TASS agentliyinin Ankaradakı rəsmi mənbələrə istinadən yaydığı məlumata görə, yaxın vaxtlarda yol xəritəsinə baxılaraq qərar veriləcək. Yol xəritəsi imzalandıqdan sonra tərəflər onun icrasına başlayacaqlar.

Türkiyənin regional qaz habına çevrilməsi zərurətini Rusiya-Ukrayna müharibəsi fonunda yaranan yeni reallıqlar şərtləndirir. Cərəyan edən geosiyasi proseslər ölkələr üçün enerji təhlükəsizliyinin önəmi daha da artıb. Ənənəvi təchizat zəncirinin qırılması fonunda ayrı-ayrı ölkələr yeni mənbələr axtarmaq məcburiyyətində qalıblar. Əvvəllər Aropanın enerji təchizatı böyük dərəcədə şimal qonşumuzdan reallaşdırılan ixrac hesabına təmin olunurdu. Sonu görünməyən gərginliklər, o cümlədən də qarşılıqlı sanksiyalar fonunda fərqli mənzərə yaranıb. Gündəlik 5 milyon barel neft ixracatı həyata keçirən Rusiya bu həcmin 70 faizini ABŞ və Avropa bazarlarına ünvanlayırdı. "Köhnə qitə"nin neftə olan tələbatının ödənilməsində şimal qonşumuz 25 faiz paya malik idi. Rusiya Avropa üçün həm də ənənəvi olaraq optimal qaz təchizatı mənbəyi sayılırdı. Statistik məlumatlara görə, 2022-ci ilin əvvəlinədək Rusiya Avropa İttifaqı məkanına ildə 150-190 milyard kubmetr qaz ixrac etməklə qoca qitənin təbii qaza olan tələbatının 40 faizə qədərini qarşılayırdı. Bütövlükdə, "Köhnə qitə"nin illik qaz tələbatı 552 milyard kubmetrə bərabərdir.

Aİ qoca qitənin enerji təhlükəsizliyini təmin emək məqsədilə xilas planı hazırlayıb. Həmin planda Avropanın təchizatında bərpa olunan mənbələrdən alınan enerjinin payının artırılması nəzərdə tutulub. Artıq Aİ-nin elektrik enerjisi istehsalında külək enerjisinin payı 21 faizə yüksəlib. Bu, maye qaza olan tələbi azaldıb. Bu və digər tədbirlər sayəsində Aİ cari qış üçün optimal həcmdə mavi yanacaq tədarükünə nail olub. Gas Infrastructure Europe-nin (GIE) məlumatına görə, 97,89 faiz dolu olan anbarlarda 107,75 milyard kubmetr qaz var. Lakin qaz bolluğuna baxmayaraq, qiymətlər kifayət qədər yüksəkdir. Sentyabrda Avropada qazın orta alış qiyməti min kubmetr üçün 417 dollar təşkil edib. Hazırda bu qiymət 600 dollardan yuxarıdır.

Avropanın xilas planında diqqət çəkilən əsas məsələlərdən biri təchizat mənbələrinin şaxələndirilməsi ilə bağlıdır. Başa düşülür ki, buna nail olunmadan "Köhnə qitə"ni mavi yanacaq asılılığından qurtarmaq mümkün olmayacaq. Hazırda Avropanın bir çox ölkələrinin, xüsusilə də Cənubi və Şərqi Avropa ölkələrinin terminal yaratmaq imkanları yoxdur. Qeyd olunan reallıqlar fonunda təchizatçı Rusiyanın və istehlakçıların nəzərləri Türkiyəyə dikilib ki, bu da təsadüfi deyil.

### Niyə məhz Türkiyə?

Heç də adi olmayan bir şəraitdə nəzərlərin Türkiyəyə dikilməsini şərtləndirən çoxsaylı amillər sadalamaq mümkündür. Son illərdə müxtəlif məsələlərdə obyektiv vasitəçilik missiyası həyata keçirməsi, regional və qlobal proseslərdə rolunun artması, əlverişli coğrafi mövqeyi, istehsalçı və istehlakçı ölkələrlə qonşuluqda yerləşməsi, özünün iri qaz istehsalçısına çevrilməsi perspektivi bütün maraqlı tərəflərin qardaş ölkəyə inamını artırır. Ən mühüm məqam isə heç şübhəsiz ki, hazır infrastrukturla bağlıdır. Türkiyə böyük həcmlərdə Rusiya qazını Avropa bazarlarına daşımaq üçün şaxələndirilmiş nəql marşrutlarına malikdir. Bu marşrutlar sırasında Türk axını, TANAP, TAP, İrandan çəkilmiş İTE xətti kimi hazır marşrutları qeyd edə bilərik. Türkiyənin qaz nəqli şəbəkəsi Avropa ilə birləşib. Yəni burada yeni xətlərin çəkilməsinə lüzum yoxdur.




Rusiyalı ekspertlərin hesablamalarına əsasən 2027-ci ilədək Türkiyədəki qaz habından Avropaya ildə 35,75 milyard kubmetr mavi yanacaq ötürmək mümkün olacaq. Hazırda Türkiyəyə Qara dənizin dibindən "Türk axını" xəttinin iki borusu ilə 31,5 milyard kubmetr, "Mavi axın" xətti ilə 16 milyard kubmetr - cəmi 47,1 milyard kubmetr Rusiya qazının ötürülməsi imkanı var. 2022-ci ildə bu həcmin yalnız 33,2 milyard kubmetri reallaşıb. Əgər Türkiyə və Avropa ölkələrindən tələbat artarsa, ildə Rusiya bu xətlərlə Türkiyəyə əlavə olaraq 12,9 milyard kubmetr qaz ötürə bilər.

Türkiyənin, həmçinin Tengiz-Ankara boru xətti ilə İrandan ildə 10 milyard kubmetr qaz almaq imkanı var. Eyni zamanda, perspektivdə Türkmənistanda çıxarılan qazın da Türkiyə üzərindən ixracı tam realdır.

Azərbaycandan isə Cənub Qaz Dəhlizi ilə ildə 25 milyard kubmetr qaz daxil ola bilər. Beləliklə, hazırda Türkiyənin 3 ölkədən qaz cəlb etmək potensialı illik 82,5 milyard kubmetrdir. 2022-ci ildə ölkənin özünün boru qazı istehlakının 39,7 milyard kubmetr olduğunu nəzərə alsaq, Türkiyənin formalaşdırılmaqda olan qaz habı ilə Avropaya ildə 42,8 milyard kubmetr qaz ötürmək imkanı ola bilər. Cənub Qaz Dəhlizinə daxil olan TANAP-ın genişləndirilməsi və digər planlar reallaşarsa, bu həcmi 75 milyard kubmetrə çatdırmaq mümkündür.

### Azərbaycanın Türkiyə və Aİ ilə fəal enerji dialoqu

Özünün ədalətli enerji siyasətinə daim sadiq olan Azərbaycan həm Türkiyə, həm də Aİ ilə fəal enerji dialoquna malikdir. Ölkəmizin təşəbbüsü və moderatorluğu ilə reallaşdırılan bütün enerji layihələrində qardaş ölkə yer alıb. Bu sırada, həmçinin 2020-ci ilin sonlarında inşası tamamlanan Cənub Qaz Dəhlizi də var. Türkiyə Azərbaycanın qaz ixrac etdiyi ilk ölkələr sırasında yer alır. 2023-cü ilin 9 ayında respublikamızdan qardaş ölkəyə 7,5 milyard kubmetr mavi yanacaq tədarük olunub.

Azərbaycanla Aİ arasındada enerji dialoqu yüksələn xətlə inkişaf edir. Xatırladaq ki, ötən il iulun 18-də ölkəmizlə Avropa İttifaqı arasında "Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" imzalanıb. Bəhs olunan sazişə uyğun olaraq respublikamız Avropaya qaz ixracını artırır. Verilən məlumata görə, ötən 9 ayda ölkəmizdən "Köhnə qitə"yə 8,6 milyard kubmetr qaz ixrac olunub. 2027-ci ilədək isə respublikamızdan Avropa məkanına qaz ixracının həcminin iki dəfə artırılması hədəflənib ki, bu da tam realdır.

*Mübariz FEYİZLİ*

*Nardar BAYRAMLI*

# Cənubi Qafqaz beynəlxalq birliyin diqqət mərkəzindədir

Hazırda regionda mövcud vəziyyət, Azərbaycanla Ermənistanın münasibətlərinin normallaşdırılmasına dair aparılan danışıqlar beynəlxalq birliyin diqqət mərkəzindədir. Oktyabrın 16-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla Almaniyanın xarici işlər naziri Annalena Berbokun telefon danışığında da bu məsələlər müzakirə olunub. Nazir Ceyhun Bayramov Ermənistanın son illər ərzində həyata keçirdiyi hərbi-siyasi təxribatlar, ərazilərimizdə qeyri-qanuni erməni silahlı qüvvələrinin törətdiyi təhdidlər, Azərbaycanın erməni silahlı qüvvələrinə və ərazimizdəki qondarma rejimə qarşı həyata keçirdiyi antiterror tədbirlərini şərtləndirən amillər və tədbirlərindən sonra bölgədə cari vəziyyət barədə qarşı tərəfi ətraflı məlumatlandırıb. Azərbaycanın erməni sakinləri hədəf almadığı, bunun bölgəyə səfər edən BMT missiyası ilə yanaşı, Beynəlxalq Qızıl Xaç Komitəsi və hətta Ermənistan baş naziri tərəfindən belə təsdiqləndiyini xatırladıb. Azərbaycana qarşı davam edən qarayaxma kampaniyasının, guya erməni sakinlərə qarşı "etnik təmizləmə" həyata keçirildiyi barədə iddiaların əsassız olduğu, bunun Ermənistanın və bəzi ölkələrin siyasi manipulyasiyasının tərkib hissəsini təşkil etdiyi qeyd olunub.

Azərbaycanın erməni sakinlərin reinteqrasiyası istiqamətində planları açıqladığı, bu istiqamətdə işlər həyata keçirildiyi, müvafiq portal vasitəsilə ermənilər tərəfindən daxil olan müraciətlərin nəzərdən keçirildiyi nazir tərəfindən bildirilib. Bölgədə sülh və təhlükəsizliyin bərqərar edilməsi istiqamətində səylərə mane olan təxribatçı addımların, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı olan çağırışları dəstəkləyən bəyanatlardan çəkinməyin vacib olduğu vurğulanıb. Azərbaycanın bütün ərazisində suverenliyinin bərpa edilməsindən sonra, Ermənistanla sülh sazişi imzalanması üçün real şansların olduğu, Ermənistan tərəfindən bu imkanların müsbət dəyərləndiriləcəyinə ümidvar olduğumuz diqqətə çatdırılıb.

Daha sonra, qarşılıqlı maraq doğuran ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb

Ümumiyyətlə, İkinci Qarabağ müharibəsində qalib gəlməsinə baxmayaraq Azərbaycan Ermənistanla münasibətlərin normallaşdırılmasında maraqlı olduğunu bəyan edib. Çünki müharibə dövrü tarixin arxivində qalmalı, Cənubi Qafqaz sülh və əməkdaşlıq məkanına çevrilməlidir. Məlumdur ki, Azərbaycan sülh sazişi imzalamaq üçün qarşı tərəfə beş bənddən ibarət təkliflərini təqdim edib. Bu baza prinsiplərində ilk olaraq dövlətlərin bir-birinin suverenliyini, ərazi bütövlüyünü, beynəlxalq sərhədlərinin toxunulmazlığını və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması əks olunub. İkincisi, dövlətlərin bir-birlərinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsidir. Üçüncüsü, dövlətlərarası münasibətlərdə bir-birlərinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinmək, dördüncüsü, dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulmasıdır. Beşinci bənd isə nəqliyyat və kommunikasiyaların açılışı, digər müvafiq kommunikasiyaların qurulması və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın qurulmasından ibarətdir. İki dövlət məhz bu baza prinsipləri əsasında intensiv, substantiv və nəticəyə yönəlik danışıqlar apararaq ikitərəfli sülh sazişini yekunlaşdıra bilərlər.




Beləliklə, rəsmi Bakının sülh sazişinin imzalanması üçün təklifləri aydındır və bu təkliflər beynəlxalq hüquq normalarına əsaslanır. Digər tərəfdən, rəsmi Bakı dəfələrlə bəyan edib ki, Qarabağın erməni sakinləri ilə bağlı məsələlər dövlətimizin daxili işidir. Onların reinteqrasiyası üçün Azərbaycan zəruri addımları atır. Ermənistanın və onun havadarlarının ölkəmizi "etnik təmizləmə"də ittiham etməsinin heç bir əsası yoxdur. Beynəlxalq birlik, normallaşma prosesinə vasitəçilik edən tərəflər, eləcə də, Almaniya bölgədə mövcud məsələlərə obyektiv münasibət sərgiləməlidir.

# Hər şey Fransada “İnterkontinental” hotelindən başladı...

2023-cü il oktyabrın 15-də Azərbaycan gerbinin Xankəndidə asılması və üçrəngli bayrağımızın ucaldılması ilə Azərbaycanın Qarabağda suverenliyi tam bərpa olundu. Beləliklə, 100 illik bədnam tarixin sonu gəldi. Yaşananlardan, ərazilərimizdə separatizmin kökünün birdəfəlik kəsilməsindən xalqımız sonsuz qürur duyur. Tariximizdə həmişəlik qalacaq bu əlamətdar hadisənin “Heydər Əliyev İli”nə və məhz oktyabr ayına təsadüf etməsi isə böyük rəmzi məna daşıyır.

## Uzaq 1987-ci ilin oktyabrı, Paris

Təxminən 30 il ərzində həllini tapmayan keçmiş Dağlıq Qarabağ münaqişəsi ölkəmizin, xalqımızın həyatına miqyası çox böyük olan məhrumiyyətlər gətirdi. Faciələr yaşadıq, bir milyon soydaşımız illərlə qurub-yaratdığı ev-eşiyindən didərgin düşdü, çadırlarda, vaqonlarda ağır qaçqınlıq, məcburi köçkünlük həyatı yaşadı, Birinci və İkinci Qarabağ müharibələrində şəhidlər verdik, işğal altında qalan ərazilərimizdə tarixi mədəni-dini irs nümunələrimiz vəhşicəsinə dağıdıldı. Bir sözlə, gənc müstəqil dövlətimiz humanitar faciə ilə üzləşdi. Ancaq xalqımız dözdü, ədalətsizliyə son qoyulacağına və doğma yurd yerlərinə qayıdacağına inamını heç vaxt itirmədi və o gün gəldi.

Bu qədər faciələrə və məhrumiyyətlərə səbəb olan keçmiş Dağlıq Qarabağ münaqişəsinin əsası isə uzaq 1987-ci ilin oktyabrında Fransanın paytaxtı Parisdə qoyulmuşdu. Hər şey buradakı “İnterkontinental” hotelindən başladı...

Təfərrüatları xatırlayaq. 1982-ci il 3 dekabr tarixində 1969-cu ildən Azərbaycana uğurla rəhbərlik etmiş Heydər Əliyev Bakıdan keçmiş ittifaqın paytaxtı Moskvaya getdi. Bu gediş adi bir gediş deyildi. Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin büro üzvü seçilmiş və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olunmuşdu. Onu keçmiş ittifaq rəhbərliyində məsul vəzifələrin icrası gözləyirdi.

Heydər Əliyev 1987-ci ilin oktyabrınadək Ona həvalə olunan bütün vəzifələrdə ləyaqətlə çalışdı və böyük nüfuz qazandı. SSRİ-nin yeni rəhbəri M.Qorbaçov Heydər Əliyevin artan nüfuzunu sinirə bilmir və buna qısqanclıqla yanaşırdı. Ümumiyyətlə, M.Qorbaçov ölkənin idarəçiliyində ciddi pozuntulara yol verirdi. Belə olan halda keçmiş ittifaq rəhbərliyinin siyasətinə etiraz edən Heydər Əliyev 1987-ci il oktyabr plenumunda tutduğu bütün vəzifələrdən istefa verdi. Heydər Əliyevin ittifaq rəhbərliyindən getməsinə ən çox sevinənlər M.Qorbaçovun yan-yörəsində özlərinə yer etmiş ermənilər oldular. Onlar Heydər Əliyevin yoxluğunu millətçilik ideyalarını həyata keçirmək üçün bir fürsət kimi dəyərləndirdilər. Erməni millətçiləri hesab edirdilər ki, artıq Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi uğrunda açıq fəaliyyətə başlamaq zamanı çatıb. Beləliklə, M. Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri A.Aqanbekyan Parisdə “İnterkontinental” hotelində Fransa nəşrinə verdiyi müsahibəsində keçmiş DQMV-nin Ermənistana birləşdirilməsinin iqtisadi cəhətdən daha sərfəli olmasını və bu məsələ üzərində xüsusi komissiyanın işlədiyini bəyan edərək Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ideyasını irəli sürdü. Hadisələrin sonrakı inkişafı məlumdur. Prezident İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdıqdan sonra etdiyi çıxışında baş verənləri xatırlayaraq vurğulayıb: “1987-ci ildə Heydər Əliyev öz vəzifəsindən kənarlaşdırıldı, Sovet İttifaqı Kommunist Partiyasının büro üzvlüyündən çıxarıldı. Sovet İttifaqının Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən də çıxarılmışdı. İki həftə keçməmiş erməni millətçiləri məsələ qaldırmışdılar ki, Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycandan Ermənistana verilsin. Bunu da qaldıran Moskvada oturan erməni millətçisi idi. Bu məsələ harada qaldırıldı, Fransanın bir qəzetində, yenə Fransa. Yəni, bu gün o tarixə qayıdarkən və o hadisələri təhlil edərkən bir daha görürsən ki, heç bir şey təsadüfi olmayıb. Əfsuslar olsun ki, ovaxtkı Azərbaycan rəhbərliyi faktiki olaraq vəziyyəti nəzarətdən buraxdı, qorxaqlıq, acizlik, qətiyyətsizlik göstərdi. Faktiki olaraq o vaxt millətçilər buranı zəbt eləmişdilər, bax, bu meydanda nə qədər anti-Azərbaycan şüarı ilə mitinqlər keçirilmişdir və bütün bunlar millətçiləri daha da ruhlandırırdı. Ermənistandan buraya durmadan erməni millətçiləri, daşnaklar, qaniçənlər, beynəlxalq terrorçular gəlirdilər. Xalqımıza qarşı etnik təmizləmə siyasəti məhz buradan başlamışdı. Bax, o illərdə o binada oturanlar, bütün erməni və Azərbaycan xalqlarının fa-



ciələrinin səbəbkarlarıdır. Cəmi altı il Azərbaycan Heydər Əliyevsiz qalmışdır və bu altı il bizim üçün faciəvi, böhranlı, utancverici illər kimi tarixdə qaldı. Torpaqlar işğal altına düşdü, bir-birini dəyişən antimilli hökumətlər faktiki olaraq ancaq öz şəxsi maraqlarını qorumağa çalışırdılar, həm sovet dövründə, həm müstəqillik dövründə. Xüsusilə AXC-Müsavat antimilli cütlüyünün xəyanətkar və satqın fəaliyyəti nəticəsində bütün bu boyda ərazi işğal altına düşdü, sonra da qorxaqcasına öz vəzifələrini guya donduraraq kənara çəkildilər”.

## Heydər Əliyev yenilməz bir sipər idi

Əslində, A.Aqanbekyanın Parisdəki “İnterkontinental” hotelində verdiyi bədnam müsahibədə yeni bir şey deyilmirdi. Sağalmaz “Miatsum” xəstəliyinə tutulan ermənilərin keçmiş Dağlıq Qarabağa iddiaları həmişə olub. Erməni millətçiləri bu məsələni dəfələrlə SSRİ rəhbərliyinin masasına daşıyıblar. Ancaq Heydər Əliyev fenomeni həmişə onların bəd niyyətlərinin qarşısını alıb. “Mən o illəri xatırlayıram və xüsusilə Heydər Əliyev sovet Azərbaycanında rəhbərliyə gələndən sonra Qarabağda o vaxta qədər olmuş bəzi millətçi qüvvələr tamamilə kənara çəkilmişdi. Düz 18 il. 1969-cu ildən 1982-ci ilə qədər bir dənə də xoşagəlməz hala rast gəlinməmişdi. Mən xatırlayıram, atamla birlikdə burada olmuşam. O ab-havanı mən xatırlayıram”, - deyə Prezident İlham Əliyev vurğulayıb.

Görkəmli şairimiz Bəxtiyar Vahabzadənin təbirincə desək, Heydər Əliyev ermənilərin qarşısında bir sipər kimi dayanırdı. O, ötən əsrin altmışıncı illərində Azərbaycan SSR DTK-da müxtəlif vəzifələrdə çalışarkən və sonradan qurumun sədri olarkən erməni millətçilərinin Ermənistanda və Xankəndidə Dağlıq Qarabağın Azərbaycandan qoparılması ilə bağlı fəaliyyətlərinin izinə düşmüşdü. Erməni millətçiləri tərəfindən hazırlanan bu ssenarilər müxtəlif istiqamətləri əhatə edirdi. Bu ssenarilərə, həmçinin Xankəndidə və digər ərazilərdə erməni əhalisinin Azərbaycan hakimiyyətindən narazılığını ifadə edən aksiyaların təşkil olunması, milli zəmində cinayətlərin törədilməsi, hətta erməni gənclərinin azərbaycanlılar tərəfindən qətlə yetirilməsi, Dağlıq Qarabağın respublikamızla iqtisadi bağlılığının olmaması ilə əlaqədar təbliğatlar aparılması və s. daxil idi. Respublika DTK-nın sədri Heydər Əliyev bütün bu kimi faktlar barədə müfəssəl hesabatlar hazırlayaraq respublikanın o vaxtkı rəhbərliyinə təqdim etdi və qeyd olunan ssenarilərin hamısının qarşısını aldı.

Digər erməni millətçiləri kimi, A.Aqanbekyanın “İnterkontinental” hotelində verdiyi bədnam müsahibəsində ifadə etdiyi guya Dağlıq Qarabağın Azərbaycanla iqtisadi inteqrasiyasının olmadığı kimi cəfəng fikirlərin heç bir əsaslandırması yox idi. Müdrik siyasətçi olan Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə erməni millətçilərinin qarşısını yalnız öz nüfuzu ilə kəsmirdi, həm də bölgənin digər regionlarımızla inteqrasiyasını diqqət mərkəzində saxlayır və bu məqsədlə əməli tədbirlər görürdü. Onun səyləri sayəsində Dağlıq Qarabağı Azərbaycanın digər guşələri ilə bağlayan müasir yol şəbəkəsi quruldu, o cümlədən Xankəndinə dəmir yolu çəkildi. Heydər Əliyevin təşəbbüsü ilə keçmiş DQMV-nin ərazisində təchizatı Azərbaycanın ayrı-ayrı bölgələrindən təmin olunan bir sıra istehsalatlar quruldu.

Paralel şəkildə, Heydər Əliyev Dağlıq Qarabağda yaşayan azərbaycanlılar arasında milli ruhun gücləndirilməsinə böyük səy göstərirdi. Şuşanı Azərbaycanın rəmzi kimi dəyərləndirən Heydər Əliyev burada mədəni mühitin canlandırılması üçün müxtəlif layihələrin, poeziya və musiqi bayramlarının keçirilməsinə nail olurdu. 1982-ci il yanvarın 14-də qarlı havada Heydər Əliyevin və ailə üzvlərinin iştirakı ilə Şuşada M.P.Vaqifin əzəmətli məqbərəsinin böyük təntənə ilə açılışı baş tutdu. Bütün bu kimi layihələrlə Heydər Əliyev Dağlıq Qarabağın Azərbaycanla iqtisadi, mədəni və milli bağlılığını gücləndirirdi.

***Mübariz ABDULLAYEV***

# İkiqat tarix!

## 18 Oktyabr - müstəqilliyimizin və sərhədlərimizin bərpası günü

Təqvimi vərəqləyəndə ikiqat taixlərə çox az hallarda rast gəlmək mümkündür. Azərbaycan üçün belə tarix 18 oktyabrdır. 1991-ci il oktyabrın 18-də Azərbaycan xalqı 70 ildən sonra müstəqilliyini bərpa edib. 2020-ci il 18 oktyabr tarixində isə daha bir əlamətdar hadisəyə şahidlik etdik. Həmin tarixdə 27 ildən sonra Xudafərin körpüsü işğaldan azad edildi və beləliklə də, Ermənistanın təcavüzü nəticəsində pozulmuş sərhədlərimizin bir hissəsi bərpa olundu.

## Tarixi əhəmiyyət daşıyan qərar



Daim azadlıq ideyaları ilə yaşayan Azərbaycan xalqı XX yüzillikdə iki dəfə müstəqil dövlət qurmağa nail olub. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımızın zəngin dövlətçilik tarixində çox mühüm bir mərhələni təşkil edir. Əslində, AXC-nin bəyan edilməsi 1828-ci ildə baş tutan işğaldan sonra xalqımızın itirilmiş dövlətçiliyinin bərpası idi. Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə ilk demokratik respublika idi. AXC dövlət quruculuğunda, idarəetmədə bir sıra yeni, mütərəqqi ənənələrin əsasını qoyub. Ancaq AXC-nin ömrü uzun olmayıb - cəmi 23 ay yaşayıb və 1920-ci il aprelin 28-də süqut edib. Sonrakı mərhələdə respublikamız təxminən 70 il keçmiş SSRİ-nin tərkibində yaşasa da, xalqımız müstəqillik ideyalarını həmişə qəlbində yaşadıb və müstəqil dövlətini qurmağa can atıb. Belə tarixi fürsət isə ötən əsrin doxsanıncı illərinin əvvəlində yarandı.

Dövlət müstəqilliyinin bərpasına aparan yolda qəbul olunan ilk rəsmi sənəd 1991-ci il avqustun 30-da qəbul olunub. Həmin gün Azərbaycan Respublikası Ali Sovetinin xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyasında “Azərbaycan Respublikasının Dövlət müstəqilliyini bərpa etmək haqqında” bəyannamə qəbul edilib. Bunun ardınca Ali Sovetinin həmin ilin 18 oktyabr tarixli sessiyasında “Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktı yekdilliklə qəbul edilib. Bu, tarixi əhəmiyyət daşıyan bir qərar idi. Konstitusiya Aktında 1918-ci il 28 may tarixli İstiqlal Bəyannaməsinə və “Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında” Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixli bəyannaməsinə istinad olunub və Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğu təsbit edilib.

Azərbaycan parlamentinin 15 oktyabr 2021-ci il tarixli plenar iclasında “Müstəqillik Günü haqqında” yeni qanun qəbul edilib. Elə həmin gün də Prezident İlham Əliyev tərəfindən “Müstəqillik Günü haqqında” qanun təsdiqlənib.

Qanunun təsdiqlənməsi ilə 28 May - Respublika Gününün və 18 Oktyabr - Dövlət Müstəqilliyi Gününün adı dəyişdirilib. Belə ki, mayın 28-i Müstəqillik Günü, oktyabrın 18-i isə Müstəqilliyin Bərpası Günü elan edilib.

Müstəqilliyimizin bərpasında və sonrakı mərhələdə onun qorunmasında Heydər Əliyevin müstəsna rolunu xüsusi qeyd etmək lazımdır. O, həmişə müstəqil respublikamızın Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu bildirirdi və cümhuriyyət ideyalarının ölkədə daha geniş şəkildə yayılmasına çalışırdı. Tam qətiyyətlə deyə bilərik ki, Azərbaycanın müstəqilliyə gedən yolunun, qurtuluş tarixinin əsası Heydər Əliyevin səyləri və cəsarəti sayəsində məhz qədim diyarda-Naxçıvanda qoyulub.

Ulu Öndərin xilas etdiyi, inkişafı üçün real əsaslar yaratdığı müstəqil Azərbaycan dövlətinin idarəçiliyi sonrakı mərhələdə də etibarlı əllərdə olub. 20 il bundan əvvəl-2003-cü il 15 oktyabr tarixində Azərbaycan Prezidenti seçilən İlham Əliyev həyata keçirdiyi məqsədyönlü siyasətlə müstəqil Azərbaycanı zirvələrdən-zirvələrə yüksəldir. Bəhs olunan dövrdə dünyada Azərbaycan kimi dinamik inkişaf edən ölkələrin sayı çox azdır. Biz dünyada ziddiyyətli proseslərin getdiyi, tez-tez böhranların baş verdiyi bir dönəmdə yaşayırıq. Belə bir təlatümlü dönəmdə ayrı-ayrı ölkələr çətin sosial-iqtisadi problemlərin məngənəsinə düşürlər. Prezident İlham Əliyev isə davamlı, məqsədyönlü, konkret hədəflərə hesablanan siyasət həyata keçirməklə ölkəmizin tarixinə yeni-yeni inkişaf salnamələri yazır. Ötən dövrdə Azərbaycan iqtisadi müstəqilliyini tam təmin edib. Bu gün ölkəmiz heç bir kənar qüvvədən, beynəlxalq maliyyə qurumlarından asılı deyil. Öz növbəsində iqtisadi müstəqillik ölkəmizin siyasi müstəqilliyini şərtləndirir. Hazırda özünün güclü iqtisadi potensialına əsaslanan Azərbaycan dövləti xalqımızın, ölkəmizin milli maraqlarını qətiyyətlə qoruyur və tam müstəqil siyasi kurs həyata keçirir.

Müstəqil Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə qazandığı ən böyük uğur isə, heç şübhəsiz ki, öz gücünə ərazi bütövlüyünü və Qarabağda suverenliyini tam təmin etməsidir. Bu gün müstəqil Azərbaycanın üçrəngli bayrağı respublikamızın bütn guşələrində əzəmətlə dalğalanaraq bizə sonsuz qürur yaşadır.



## Xalqı sevindirən Xudafərin müjdəsi

44 günlük Vətən müharibəsi günlərində xoş bir ənənə yaranmışdı. Ordumuz hər dəfə yeni şəhər və kəndlərimizi işğaldan azad etdikcə Prezident İlham Əliyev sosial şəbəkə hesabındakı paylaşımlarında bu qələbələrin sevincini xalqımızla bölüşürdü. Dövlətimizin başçısının növbəti qələbə müjdəsi Xudafərin körpüsünün işğaldan azad edilməsi ilə bağlı oldu. Prezident İlham Əliyevin tviter səhifəsində paylaşdığı “Azərbaycan Silahlı Qüvvələri qədim Xudafərin körpüsünün üzərində Azərbaycan bayrağını qaldırdılar. Eşq olsun Azərbaycan xalqına! Qarabağ Azərbaycandır!” tviti ölkəmizdə xüsusi coşqu ilə qarşılandı.

Qeyd edək ki, Ermənistanın ötən əsrin doxsanıncı illərinin əvvəllərində havadarlarının dəstəyi ilə həyata keçirdiyi işğal nəticəsində ölkəmizin İranla olan 132 kilometr uzunluğunda dövlət sərhədi bütünlüklə düşmənin nəzarətinə keçmişdi. 18 oktyabr 2020-ci il tarixində Xudafərin körpüsü ilə yanaşı, Cəbrayıl rayonunun daha iki yaşayış məntəqəsi - Hacılı və Hacı İsaqlı kəndləri, həmçinin bir sıra yüksəkliklər də işğalçılardan azad edilib. Bununla da İranla dövlət sərhəddimizin xeyli hissəsi bərpa olunub. Hərbçilərimiz Xudafərinin azad edilməsi planını çox məharətlə hazırlayıblar və uğurla həyata keçiriblər. Əvvəlcə erməni hərbi birləşmələri ətrafdakı yüksəkliklərdən çıxarılıb. Bundan sonra hərbçilərimiz komandanlığın tapşırıqlarına uyğun olaraq körpüyə müxtəlif istiqamətlərdən yaxınlaşıblar. Xudafərinin azad edilməsi zamanı hərbiçilərimiz arasında itkilər olmayıb.

Xudafərin körpüsünün və Xudafərin kəndinin işğaldan azad edilməsi Vətən müharibəsinin əlamətdar hadisələrindən sayılır. Bu qələbə Azərbaycan Ordusunun özünəinamını daha da artırıb, düşmənin həm hərbi, həm də psixoloji məğlubiyyətinə yol açan vacib amillərdən olub.

Xudafərin körpüləri Azərbaycan memarlığının nadir nümunələrindəndir. Araz çayı üzərində salınan iki Xudafərin körpüsü bu gün də öz əzəmətini saxlamaqdadır. Onlardan “Baş Xudafərin körpüsü” adlanan 11 aşırımlı körpünün uzunluğu 130, eni 6, hündürlüyü isə 12 metrdir. İkinci körpü isə 15 aşırımlı olmaqla uzunluğu 200, eni 4,5 metr, hündürlüyü 10 metrdir. Araz çayı üzərində salınan bu körpulər xalqımızın birlik rəmzlərindən biri sayılır.

***M.ABDULLAYEV***



## Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər

“Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

2023-cü il oktyabr ayının 17-də YAP Kürdəmir rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Kürdəmir rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub.

Əvvəlcə Ulu Öndərin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb.

Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, ümummilli lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar.

Sonda xatirə fotosu çəkdirilib.

## Milli Məclisin plenar iclasında...

# Prezident və birinci xanıma Müstəqilliyin Bərpası Günü münasibətilə təbrik məktubu ünvanlandı

*Günel ABBASOVA*

Oktyabrın 17-də Milli Məclisin növbəti plenar iclası keçirilib. Spiker Sahibə Qafarovanın sədrliyi ilə keçirilən toplantının gündəliyinə 16 məsələnin müzakirəsi daxil edilib.




Əvvəlcə sədr çıxış edərək bildirib ki, iclas ölkəmizin və xalqımızın həyatında dönüş yaradan tarixi bir gün ərəfəsində keçirilir: "Oktyabrın 18-də biz Müstəqilliyin Bərpası gününü qeyd edirik. Bildiyiniz kimi, son yüz ildən artıq dövrdə Azərbaycan xalqı siyasi müstəqillik imkanına iki dəfə nail olub. 1918-ci il mayın 28-də qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşaya bildi.

1991-ci il oktyabrın 18-də müstəqilliyini bərpa edən dövlətimiz üçün də əslində, eyni tale yazılmışdı. Ötən əsrin 90-cı illərinin əvvəlləri ölkəmizin ağır problemlər qarşısında qaldığı bir dövrdür. O zaman hakimiyyətə gəlmiş iqtidar cəmi bir il ərzində Azərbaycanı siyasi, iqtisadi və hərbi böhran vəziyyətinə salmışdı. Ölkə vətəndaş müharibəsi və dağılmaq həddinə gəlib çıxmışdı. Dövlət həyatının bütün sahələrində hərc-mərclik, ordu adı ilə yaradılan silahlı dəstələrin özbaşınalığı vəziyyətin gərginliyini daha da artırırdı. Bütün bunlar Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına əlverişli şərait yaradırdı. Yüz minlərlə soydaşımız doğma yurdlarını tərk etməyə məcbur olurdu.

Müstəqil Azərbaycan dövlətinin iflasa uğraması təhlükəsi tam real idi. Taleyin hökmü ilə bu dəfə Heydər Əliyev fenomeni dövlət müstəqilliyinin itirilməsinə yol vermədi. 1993-cü il iyunun 15-də ali dövlət rəhbərliyinə qayıdan Ümummilli Lider qüdrətli zəkası və müdrikliyi, yenilməz iradəsi və qətiyyəti sayəsində Azərbaycanın siyasi varlığını qoruyub saxlaya bildi.

Xatırladım ki, Ulu Öndərin anadan olmasının 100 illiyi münasibəti ilə bu il mayın 16-da və iyunun 14-də Milli Məclisin xüsusi iclaslarında dünya miqyaslı siyasi və dövlət xadiminin misilsiz xidmətlərindən minnətdarlıq duyğuları ilə danışılıb.

Qeyd edilib ki, xalqımız müstəqil dövlətini qorumaq və yaşatmaq üçün tarixin verdiyi imkanı Heydər Əliyevin xilaskarlıq missiyası sayəsində reallaşdıra bilmişdir. Ümummilli Lider dünyanın böyük güclərinin iradəsinə qarşı çıxaraq, Azərbaycan üçün hazırlanmış planları alt-üst etdi, xalqımızı və dövlətimizi qorxunc təhlükələrdən keçirərək sabitlik və inkişaf dövrünə çatdırdı. Bugünkü müasir Azərbaycan Heydər Əliyevin xalq və Vətən naminə fədakarlığının parlaq nişanəsidir".

Ardınca Milli Məclis 18 Oktyabr - Müstəqilliyin Bərpası Günü münasibəti ilə Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevaya təbrik məktubu ünvanlayıb. Bu təkliflə spiker Sahibə Qafarova çıxış edib.

Deputatlar sədrin bu təklifini alqışlarla qarşılayıblar.

**Binəqədi və Abşeronun bəzi əraziləri Sumqayıta veriləcək**

Sonra "Bakı şəhəri Binəqədi rayonunun, Sumqayıt şəhərinin və Abşeron rayonunun sərhədlərinin müəyyənləşdirilməsi haqqında" qanun layihəsi, "Energetika haqqında" qanun layihəsi (ikinci oxunuş), "Lisenziyalar və icazələr haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş), Mülki Prosessual Məcəllədə, İnzibati Xətalar Məcəlləsində, "Notariat haqqında" və "İnzibati icraat haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş), "Polis haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş), Azərbaycanın 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş), "Peşə təhsili haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş), "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) səsverməyə çıxarılaraq təsdiqlənib.

Milli Məclisin deputatı Fazil Mustafanın sözlərinə görə, bir sıra ölkələrdə əsgərlik dövründən 3-4 il əvvəl çağırış olur və yoxlanış aparılır: "Bizdə də eyni təcrübəni həyata keçirə bilərik. Sağlamlığı olmayan şəxslərə müalicə imkanı yaradılmalıdır. Narkotik istifadəçilərinin hərbiyə yararlı olmaması məsələsinə baxılmalı və onların müalicəsi təmin edilməlidir".

Daha sonra "Ovçuluq haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş), "Sosial xidmət haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş), "Poçt haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş), "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş), Əmək Məcəlləsində və "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş), "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş), "Mühasibat uçotu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş), "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycanın 2023-cü il 14 iyul tarixli 987-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) səsvermə əsasında qəbul edilib.

Beləliklə, Milli Məclisin növbəti plenar iclası başa çatıb.

# Türk Dövlətləri Təşkilatının yeni erası

## Bərpa olunan sınırlar və sinirlər

Azərbaycan və Türkiyə, o cümlədən Mərkəzi Asiya respublikaları noyabrın 14-də keçiriləcək Türk Dövlətləri Təşkilatının növbəti sammitinə hazırlaşırlar.

Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi təkcə qardaş ölkə Türkiyədə deyil, digər türkdilli ölkələrdə də sevinc və qürurla qarşılanıb. Azərbaycanın böyük zəfəri qardaş türk dövlətlərinin siyasi, iqtisadi və mədəni birliyinin bərpasında çox ciddi stimul, uğurlu motivasiya rolunu oynaya bildi. Azərbaycan öz torpaqlarını azad etməklə təkcə öz sınırlarını yox, bütöv bir xalqın, millətin, eləcə də böyük türk dünyasının 30 ildir gərilən sinirlərini bərpa etdi, böyük Turanın Azərbaycandan qoparılmış sərhədlərini bütövləşdirdi. Azərbaycan Xalqı, Azərbaycan Ordusu və Azərbaycanın Ali Baş Komandanı saxta tarixi darmadağın edərək gerçək tarix yaratdı. Azərbaycan türk dünyasının qarşısında yeni və parlaq bir tarix açdı.

Bu böyük tarixi zəfərin fonunda türk dövlətlərinin birlik, yaxınlıq, əməkdaşlıq meyillərinin gücləndiyinin şahidi oluruq. Müstəqil türk dövlətləri bir-birləri ilə iqtisadi, siyasi və mədəni əlaqələri genişləndirmək, Türk Dövlətləri Təşkilatını regional və beynəlxalq gücə çevirmək yolunda önəmli addımlar atır. Sevindiricidir ki, bütün bu ideya və təşəbbüslərin aparıcı fiquru Azərbaycan Prezidenti İlham Əliyevdir. Prezidentin qətiyyəti, zəkası və uzaqgörən strategiyası hətta Rusiya mediasında da mübahisəsiz etiraf edilir. Xatırladaq ki məhz Azərbaycan prezidentinin Özbəkistana səfərindən sonra bu ölkə ilə Qırğızıstan arasında uzun illərdən bəri mövcud olan sərhəd probleminə tez bir zamanda münaqişəsiz, müharibəsiz son qoyuldu. Özbəkistan və Qırğızıstan Sovet İttifaqının miras qoyduğu düşmənçiliyi, mübahisəli ərazilər, şirin su ilə bağlı davalarını birdəfəlik dayandırdı. Qeyd edək ki, Özbəkistan-Qırğızıstan sərhədində indiyə qədər qardaş qırğınına, silahlı insidentlərə səbəb olan onlarla mübahisəli ərazi vardı. "Sizin torpağınız daha azdır" deyərək, Özbəkistan hakimiyyəti böyüklük nümayiş etdirib mübahisəli torpaqları Qırğızıstana bağışladı. Təsəvvür etmək çətin deyil ki, İlham Əliyev şəxsi nüfuzu sayəsində iki qardaş ölkənin torpaq mübahisəsini öz aralarında mehribancasına həll etmələrinə yardımçı olmuşdu.



## Rusiyanın türk birliyinə üz tutması

Rusiya mediasını izlədikdə açıq şəkildə görmək mümkündür ki, əslində, ruslar Türk Dövlətləri Təşkilatının nüfuzlu beynəlxalq təşkilata çevriləcəyinə heç də şübhə ilə yanaşmırlar, hətta bir çox hallarda Rusiyanın da bu qurumda təmsil olunması ideyası ilə çıxışlar edirlər.

"Türk Dövlətləri Təşkilatına qoşulmaq region üçün obyektiv prosesdir və hətta yeri gələrsə, Rusiya da bu quruma daxil ola bilər. Rusiyanın quruma üzvlük üçün kifayət qədər əsası var", - deyən Rusiya Xəzər Strateji Araşdırmalar İnstitutunun regional proqramlar üzrə direktoru Yuri Solozobov belə bir iddia ilə çıxış edib.

Ümumilikdə, bu ideya gerçək ola bilərmi, olmalıdırmı? Sözsüz ki, bu barədə ciddi müzakirələrin aparılması üçün uzun zaman tələb olunur. Lakin Rusiyanın daxilində 8 türk respublikasının, eləcə də onlarla türkdilli xalq və toplumun mövcudluğunu nəzərə alsaq, əslində, federasiyanın TDT-yə daxil olmaq üçün mənəvi əsaslarının olduğunu inkar edə bilmərik. Bütün hallarda reallıq ondan ibarətdir ki, Rusiya Avrasiyada türk birliyinin siyasi varlığını qəbul edir və regional güc olaraq türk faktoru ilə hesablaşmalı olur.

Türk Dövlətləri Təşkilatına üzv olduqdan sonra Türkmənistan qazının TANAP xətti ilə Azərbaycana, Azərbaycandan Türkiyəyə, oradan da Avropaya daşınması planlaşdırılır. Beləliklə, türkmən qazının Azərbaycan və Türkiyə vasitəsilə Avropa İttifaqına daşınması Türkmənistan, eləcə də region dövlətləri üçün yeni imkanlar açır. Transxəzər qaz kəmərinin tikintisi planını da buraya əlavə etsək, türk dövlətləri coğrafiyasında yeni, nəhəng enerji və logistika layihələrinin gerçəkləşəcəyi tarixin uzaqda olmadığına əmin ola bilərik.

Transxəzər marşrutu ilə bağlı məsələlər Rusiyada da diqqətlə izlənir. Türkmənistanın TANAP xəttinə qoşulmasına şübhə ilə yanaşan bəzi rusiyalı ekspertlərin fikrincə, türkmən qazının Xəzəryanı dövlətlərin indiyə qədərki infrastrukturu vasitəsilə daşınması daha real olardı.

"Azərbaycan Türkiyə qaz qovşağının yaradılması layihəsinə qoşulduqdan sonra vəziyyət kəskin şəkildə dəyişə bilər". Bu fikri Rusiya Federasiyası Baş nazirinin müavini Aleksandr Novak deyib. Novak layihə barədə danışarkən: "Bu, həm Türkiyənin, həm də Rusiyanın böyük maraq göstərdiyi bir proyektdir. Bu məsələ ilə maraqlanan başqa ölkələr də var. Məsələn, Azərbaycan da sözgedən layihədə iştirak etməyə hazırdır", - söyləyib.

Bir çoxları əmin olmasalar da, Türkmənistanın bu qaz qovşağının yaradılmasında iştirakçıya çevrilməsi tamamilə mümkündür. Bu ehtimalı Rusiyada da qəbul edənlər var: "Türkmənistan regionda enerji və logistika birlikləri planlarında Azərbaycandan sonra növbəti tərəfdaşdır. Türkmənistanın enerji resursları olmadan Türkiyədə qaz qovşağı tamamlanmayacaq. Bu layihə Rusiya üçün də maraqlıdır. Bu proyekt Rusiya qazını istənilən üsulla Avropa bazarına çıxarmaq imkanı verəcək. Hesab edirəm ki, bu, çox yaxşı ideyadır və Rusiya hakimiyyəti tərəfindən də dəstəklənəcək", - bu fikirləri Xəzər Strateji Araşdırmalar İnstitutunun regional proqramlar üzrə direktoru Yuri Solozobov yerli mediaya müsahibə verərkən söyləyib.

Sonda demək istərdik ki, ümumiyyətlə, Rusiya mediasında ölkəmizin əhəmiyyəti, Bakı ilə əməkdaşlığın vacibliyi, Azərbaycanın regionda söz sahibinə çevrilməsi, Prezident İlham Əliyevin yüksək siyasi imici, beynəlxalq nüfuzu haqda müsbət nüanslar mütəmadi olaraq vurğulanır və Rusiyanın Azərbaycanla yaxşı münasibətlər saxlamasının vacibliyinə xüsusi diqqət yetirilir. Hətta Türkmənistan qazı barədə danışarkən belə Rusiya Baş nazirinin müavini bu ölkənin məhz "Azərbaycandan sonra" ikinci önəmli tərəf olduğunu qeyd edir. Sözsüz ki, bütün bu məqamlar Azərbaycanın təkcə hərbi sahədə yox, siyasi-diplomatik səhnədə də mükəmməl oyunçu olduğunu sübut edir.

## TDT-yə yeni üzv gəlir

Hazırda türk respublikalarının gündəliyində duran əsas suallar, Türk Dövlətləri Təşkilatının növbəti sammitində nələrin gözləndiyi, hansı sənədlərin imzalanacağı, qurumun gələcək perspektivləri ilə bağlı məsələlərdir.

Bu arada, regional media Türkmənistan prezidenti Serdar Berdiməhəmmədovun Türkiyəyə rəsmi səfər edəcəyi barədə məlumat yayıb. Səfər çərçivəsində Türkmənistan prezidentinin türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanla ticarət, enerji və nəqliyyat sahələrində əməkdaşlıq, o cümlədən, Türkmənistanın Türk Dövlətləri Təşkilatına tamhüquqlu üzv kimi qəbulu məsələlərini müzakirə edəcəyi gözlənir.

Sərdar Berdiməhəmmədov sentyabrın 22-də, 42 yaşı tamam olduğu gündə prezident Ərdoğan tərəfindən Türkiyəyə dəvət edilib. Xəbəri "Neytral Türkmənistan" qəzeti yayıb. Rəcəb Tayyib Ərdoğan gənc həmkarı Sərdar Berdiməhəmmədova ünvanladığı təbrik məktubunda qardaş Türkmənistana firavanlıq və səadət arzu edib. Ərdoğan ölkələrinin ikitərəfli formatda, xüsusilə TDT kimi nüfuzlu beynəlxalq təşkilat çərçivəsində əməkdaşlığının dərinləşəcəyinə əminliyini ifadə edib. Siyasi ekspertlər düşünürlər ki, Türkiyə liderinin Türkmənistana bu doğma münasibəti Aşqabadın TDT-yə tamhüquqlu üzvlüyünü reallaşdıracaq. Əlbəttə, az qala eyni dildə danışan iki türk dövlətinin qardaşlıq münasibətindən daha təbii bir şey yoxdur.

Türkmənistan uzun müddətdir enerji marşrutlarını şaxələndirmək planları hazırlayırdı. Görünür, TDT-yə tamhüquqlu üzv olduqdan sonra Aşqabad yeni layihələrin icrasına başlayacaq. 2023-cü ilin mart ayının 16-da Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə çağırılan TDT-nin fövqəladə zirvə toplantısı zamanı Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ölkəsinin yaxın zamanlarda TDT-yə üzv olacağını bəyan etmişdi. Beləliklə, TDT-nin noyabrın 14-də keçiriləcək növbəti sammitində Türkmənistanın türk birliyinə təntənəli şəkildə daxil olması gözlənir.

## Söz sahibi Azərbaycan

*Murad Köhnəqala*

# Sülhə gedən yolda əsas daşı aradan qaldırdıq

*NARDAR*

44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsindən sonra Azərbaycanın ərazi bütövlüyü, bu ilin sentyabrında isə Qarabağda keçirilən antiterror tədbirlərindən sonra suverenliyimiz təmin olunub. Antiterror tədbirləri nəticəsində dövlət suverenliyimizin tam bərpa olunması, ümumilikdə, regionda təhlükəsizliyin möhkəmlənməsi və sülhə nail olunması üçün yeni imkanlar yaradır. Dövlətimiz hələ Vətən müharibəsi başa çatandan sonra Cənubi Qafqaz regionunun sülh və əməkdaşlıq məkanına çevrilməsi üçün təşəbbüslərlə çıxış edib.

Azərbaycan həmişə sülh tərəfdarı olduğunu bəyan edir. Hazırda bölgədə sülhün təmin olunması məqsədilə bir sıra beynəlxalq platformalar çərçivəsində müzakirələr aparılır. Azərbaycan regionda sülhün bərqərar olması naminə irəli sürülən beynəlxalq təşəbbüsləri dəstəkləyir. Sadəcə, Ermənistan hakimiyyəti özündə iradə tapıb regionumuzun gələcəyi naminə sülh sazişini imzalamalıdır. Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov BBC-yə müsahibəsində regionda mövcud proseslərə toxunub və "Mən həqiqətən inanıram ki, bu, müharibənin sonu olacaq, çünki nəhayət, biz sülhə gedən yolda əsas daşı aradan qaldırdıq. Bu daş isə Ermənistan silahlı qüvvələrinin suveren ərazimizdə davam edən qanunsuz hərbi mövcudluğu idi". Elçin Əmirbəyov hesab edir ki, növbəti addım Ermənistanla Azərbaycan arasında sərhədin delimitasiyası ilə bağlı danışıqlar ola bilər. "Əsas məqam bu məsələnin sülh yolu ilə həll edilməsi üçün hər iki tərəfin kifayət qədər siyasi iradəyə sahib olub-olmayacağıdır. Biz ikitərəfli danışıqların digər istiqamətləri üzrə olduğu kimi, bu məsələnin də həllində də olduqca maraqlıyıq. Hesab edirəm ki, aramızdakı sərhəd nə qədər tez razılaşdırılsa, bir o qədər yaxşıdır. Bu zaman hər hansı hərbi əməliyyatların yenidən başlaması ehtimalı da bir o qədər azalmış olacaq", - deyə Prezidentin nümayəndəsi qeyd edib.

O, həmçinin Zəngəzur dəhlizi ilə bağlı da fikirlərini bildirib: "Biz qəbul edirik ki, bu, Ermənistanın suveren ərazisidir. Lakin qarşı tərəfin dəhliz boyu hərəkətin təhlükəsizliyini necə təmin edəcəyini bilmək bizim üçün vacibdir. Bizə lazımdır ki, Azərbaycanın əsas hissəsindən Naxçıvana və ya geri istiqamətdə qatara minən hər bir sərnişinin təhlükəsizliyinə etibarlı zəmanət verilsin". Elçin Əmirbəyov deyib ki, Bakı danışıqlara hazırdır, lakin Ermənistan prosesi ləngitməyə üstün verərsə, o zaman Azərbaycan İran ərazisindən marşrut çəkməyə hazırdır.

**Elçin Əmirbəyov: Azərbaycanın əsas hissəsindən Naxçıvana və ya geri istiqamətdə qatara minən hər bir sərnişinin təhlükəsizliyinə etibarlı zəmanət verilməlidir**



Məlumdur ki, bölgədə kommunikasiyaların açılması Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata daxil edilib. Beləliklə, Zəngəzur dəhlizinin açılması bu bəyanatın tələblərindən biridir. Həmin sənədin 9-cu bəndində bu məsələ öz əksini tapır: "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək". Buradan göründüyü kimi, indiki Ermənistanın ərazisində yerləşən Zəngəzurdan hərəkət maneəsiz olmalıdır. Təəssüf ki, rəsmi İrəvan dəhlizin açılmasına əngəllər törədir. Lakin hələ də anlamaq istəmir ki, ümumilikdə, Avropa ilə Asiyanı birləşdirəcək bu kommunikasiya xətti özü üçün də iqtisadi dividentlər gətirəcək.

Bütövlükdə, əgər rəsmi İrəvan bölgədə sülh və təhlükəsizliyin təmin olunmasını istəyirsə, təxribatlardan çəkinməli, əsassız yerə Azərbaycanı ittiham etməməli və beynəlxalq ictimaiyyəti çaşdırmamalıdır. Ən doğru yol isə Ermənistanın üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsi və Azərbaycanın haqlı şərtlərini qəbul etməsidir.

# Dünya mediası Xankəndidən yazır!




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 15-də Xankəndiyə, həmçinin Qarabağın digər rayon və şəhərlərinə səfəri, orada ölkəmizin üçrəngli Bayrağını ucaltması və çıxışında səsləndirdiyi fikirlər dünya mediası tərəfindən geniş işıqlandırılıb.

Türkiyənin Anadolu Agentliyi, "TRT Haber", "NTV", Haber Global, "Hürruyet", "CNN türk", "İHA", "Sözcü", "Habertürk", "YeniAkit", "Yeniçağ", "Sabah" və bir çox digər media qurumları tərəfindən yayımlanan xəbərlər "Xankəndidə Azərbaycan Bayrağı ucaldıldı", "Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Bayrağını Xankəndidə və Xocalıda qaldırıb" kimi başlıqlarla verilib.

Materiallarda Azərbaycanın Qarabağdakı erməni silahlı qruplaşmalarına qarşı apardığı qətiyyətli mübarizənin qələbə ilə nəticələnməsi, bunun ardınca Prezident İlham Əliyevin oktyabrın 15-də bölgənin mərkəzi şəhəri olan Xankəndidə Azərbaycan Bayrağını ucaltmasından söz açılıb. Bunun tarixi hadisə kimi mühüm əhəmiyyət daşıdığı vurğulanıb.

İlham Əliyevin Xankəndidə Dövlət Bayrağını ucaltması və çıxışı Rusiya KİV-lərinin də diqqət mərkəzində olub. "Moskovski komsomolets" nəşri bu xəbəri Azərbaycan Prezidentinin rəsmi saytına istinadla yayıb. Eyni zamanda, nəşr Prezident İlham Əliyevin Ağdərədə də Azərbaycan Bayrağını ucaltdığını qeyd edib.




Rusiya Dövlət Dumasının rəsmi nəşri olan "Parlamentskaya qazeta" xatırladır ki, Azərbaycan Ordusu sentyabrın 19-da antiterror tədbirləri keçirib və nəticədə sentyabrın 28-də qondarma "Dağlıq Qarabağ respublikası"nın buraxılması barədə sənəd imzalanıb.

### 20 illik düşünülmüş siyasətin uğurlu nəticəsi

Milli Məclisin üzvü Tahir Rzayev "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki,

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xankəndidə, Ağdərədə, Xocavənddə, Xocalıda və işğaldan azad olunmuş digər ərazilərimizdə Azərbaycan bayrağını ucaltması və Xankəndidəki çıxışının dünyanın bir çox mətbuat orqanlarında, kütləvi informasiya vasitələrində işıqlandırılması təsadüfi deyil. Prezidentimizin söylədiyi kimi bu hadisələr Azərbaycan xalqının onillər ərzində olan arzularının çin olması, ləyaqətinin bərpa edilməsidir. Çünki Azərbaycan xalqı 30 ildir bu günü gözləyirdi və torpaqlarımızın azad edilməsi, Xankəndidə, Şuşada, eləcə də digər işğal altında olan torpaqlarda bayraqlarımızın ucaldılması xalqımızın ən müqəddəs istəyi idi.




Azərbaycan Prezidenti, Ali Baş Komandan bu arzuları, bu istəkləri həqiqətə çevirdi. Çox fərəhli və qürurverici haldır ki, bu hadisələr həmin ərazilərdə bayraqların dalğalandırılması, ucaldılması, ölkə rəhbərinin 20 illik fəaliyyətinə yekun vurulduğu bir günə təsadüf etdi və bu çıxışı ilə İlham Əliyev sanki 20 illik fəaliyyətinin hesabatını verdi. Çünki o uzun illər işğal altında olan torpaqları azad etmiş, Ulu Öndərimizin, şəhidlərimizin ruhunu şad etmişdi. Öz yurd yuvalarından didərgin salınan, olmazın bəlalara düçar olan insanların yarasına acılarına bir məlhəm qoymuşdu.

Əlbəttə ki, bu uğurlar asan qazanılmamışdı və Prezidentin 20 ildə həyata keçirdiyi planların, düşünülmüş siyasətin, eləcə də dünya ölkələri ilə qurulan münasibətlərin Vətənə, torpağa, xalqa bağlılığın bir nəticəsi idi. Ölkə rəhbəri bu sədaqəti, bu uzaqgörənliyi, bu humanizmi bir daha öz çıxışında ifadə etdi və bildirdi ki, 44 günlük müharibə, 23 saatlıq antiterror tədbirləri Azərbaycan xalqının başını ucaltdı. Azərbaycan ordusunun, Azərbaycan əsgərinin, Azərbaycan vətəndaşın nəyə qadir olduğunu bütün dünyaya nümayiş etdirdi. Məhz bu səbəbdən Azərbaycan Prezidentinin dedikləri dünya ictimaiyyəti və mediası tərəfindən rəğbətlə qəbul edilir".

*Günel ABBAS*

---

**"Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir".**

***Ümummilli lider Heydər Əliyev***

# Multikulturalizmin Azərbaycan modeli

**"Biz Azərbaycanda multikulturalizmi bir həyat tərzi olaraq qoruyur və dəstəkləyirik. Azərbaycan dünyada tolerantlığın, müxtəlif dini və etnik qrupların nümayəndələrinin dinc birgəyaşayışının nümunəsi sayılır"**

***Prezident İlham Əliyev***

**I Yazı**

Fərqli sivilizasiyalar, fərqli mədəniyyətlər və fərqli düşüncələrin birgə yaşayışını, əməkdaşlığını özünə hədəf seçən, bəşəriyyəti xilas edərək gələcəyə aparan yol bu günün Azərbaycanda mövcud olan nümunələrdən keçir. Müasir Azərbaycan müxtəlif dəyərlərin bir-biri ilə tanış olduğu körpüdür. Tarixi faktlar da sübut edir ki, fərqli dünyagörüşünə, milli-mənəvi dəyərlər sisteminə, dini baxışlara sahib olan xalqların bir-biri ilə dialoq qurmaq, ortaq dil tapmağa çalışmaq kimi nəcib təşəbbüsləri bir çox hallarda bəşəriyyəti fəlakətlərdən, müharibə və toqquşmalardan xilas etmişdir. Təsadüfi deyil ki, müasir dünyada sivilizasiyaların dialoquna, tolerant düşüncə tərzinə, müxtəlif etno-mədəni topluluqların birgəyaşayışına nail olmaq demokratik cəmiyyət qurmağın təməl prinsiplərindən biri hesab olunur. Tarixən başqa millətlərə və səmavi dinlərə, fərqli mədəniyyətlərə dözümlü yanaşması ilə seçilən Azərbaycanda müşahidə edilən tolerantlıq xalqımızın milli-mənəvi dəyərlər sistemindən, düşüncə tərzindən qaynaqlanır. Geostrateji mövqeyinə görə müxtəlif dünyagörüşlərin, milli-mənəvi dəyərlərin, dini-sakral baxışların qovuşduğu bu torpaqlarda yaşayan insanlar birgəyaşayışın təkcə coğrafi deyil, həm də mənəvi təzahürünü, fərqli mədəniyyətlərin dialoqunu öz gündəlik həyatında hiss edir.

Bu gün hər bir azərbaycanlı fəxrlə deyə bilər ki, xalqımız tarixin ən çətin dövrlərində belə, öz zəngin milli-mənəvi irsini və adət-ənənəsini yad təzahürlərdən qoruyaraq saxlamış və nəsildən-nəsilə ötürmüşdür. Şübhəsiz, bunda dini etiqadın rolu böyük olmuşdur. Təsadüfi deyil ki, günümüzədək gəlib çıxan milli-mənəvi dəyərlərimiz, adət-ənənələrimiz insanlarımızın dini etiqadına əsaslanaraq özündə çox böyük milli əxlaqi və bəşəri duyğuları təcəssüm etdirir. Həyatına daxil olan bütün dinlərin, xüsusilə də İslamın əsl mahiyyətini dərk edən, saflığını qoruyan xalqımız onun insanı paklığa səsləyən müqəddəs çağırışlarına, mərasim və ayinlərinə tarixin bütün məqamlarında əməl etməyə çalışmışdır. Hətta insanların yaddaşında ateizm mərhələsi kimi qalan sovet dönəmində də xalqımız öz milli-mənəvi dəyərlərindən, dini baxışları və adət-ənənələrindən uzaqlaşmamış, əksinə, milli-dini dəyərlərinə daha böyük istəklə sarılmışdır.

Azərbaycanda dinin tarixinə nəzər salsaq görərik ki, ayrı-ayrı dövrlərdə ölkə ərazisində bütpərəstlik, zərdüştilik, yəhudilik, xristianlıq kimi dinlər yayılıb. Qədim İpək Yolunun üzərində yerləşən və Qərblə Şərq arasında körpü rolunu oynayan Azərbaycan torpağı tarix boyu müxtəlif dinlərin qovuşduğu bir məkan olub. Ölkəmizin tarixi inkişafının xüsusiyyətləri, coğrafi mövqeyi, əhalisinin etnik tərkibi burada müxtəlif dinlərin mövcudluğuna şərait yaradıb. VII əsrin əvvəllərində isə Ərəbistan yarımadasında meydana çıxan İslam tezliklə dünyanın böyük bir hissəsinə yayılıb və elə həmin dövrdən başlayaraq İslam dini Azərbaycan xalqının milli düşüncəsində yer alaraq mədəniyyətinin tərkib hissəsinə çevrilib. Demokratikləşmənin ən vacib prinsiplərindən biri milli mənsubiyyətindən, dilindən, irqindən, dini etiqadından asılı olmayaraq, hamının hüquq bərabərliyinin qorunub saxlanılması, adıçəkilənlərə bu azadlıqların hamısının verilməsidir. Azərbaycan da çoxmillətli, çoxkonfessiyalı dövlətdir. Milliyətindən, dilindən, dinindən, inanclarından, adət-ənənələrindən asılı olmayaraq bizdə insanların hamısı bərabər hüquqlardan istifadə edir. Əslərboyu müxtəlif dinlərin və millətlərin nümayəndələri ölkəmizdə sülh və qarşılıqlı anlaşma şəraitində yaşayıblar. Bu gün də Azərbaycanda tarixən yayılan dinlərin çoxu öz mövcudluğunu saxlamaqda davam edir.

Çoxkonfessiyalı Azərbaycan əhalisinin təxminən 96 faizini müsəlmanlar, 4 faizini xristianlar, yəhudilər, bəhailər, krişnalar və digər dinlərin mənsubları təşkil edirlər. Xristianlığın demək olar ki, bütün cərəyanları - pravoslav, katolik, lüteran və protestant təriqətləri, eləcə də tarixi Alban kilsəsinin mənsubları olan xristianlar ölkəmizdə təmsil olunurlar. Ölkənin xristian əhalisi əsasən Bakı, Sumqayıt, Gəncə şəhərlərinin, eləcə də Qax (gürcü pravoslavlar), İsmayıllı, Gədəbəy, Qobustan (molokanlar), Qəbələ və Oğuz (Nic qəsəbəsində və Oğuz şəhərində alban-udilər) rayonlarının əhalisidir. Katoliklər və lüteranlar daha çox Bakı şəhərində yaşayırlar. Hazırda Azərbaycanda 2 mindən çox məscid, 16 kilsə və 7 sinaqoq var. Kilsələrdən 5-i pravoslav (Bakıda 3, Gəncə və Xaçmazda 1), 4-ü gürcü pravoslav (Qax rayonu), 1-i lüteran, 1-i katolik və 2-si Alban-udi dini icmasına mənsubdur. Yəhudi sinaqoqlarından 2-si Bakıda, 2-si Oğuzda, 3-ü Quba rayonunun Qırmızı qəsəbəsində yerləşir.

Dünyada yüksək milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı yaşatdığı və təbliğ etdiyi bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə özünəməxsus harmoniya yaradır. Bu cür dəyərlərə, milli və yüksək humanist ənənələrə malik olan Azərbaycan həm də multikulturalizm prinsiplərini dünyada yayan nadir ölkələrdəndir. Ölkəmizdə bu sahədə bərqərar olan münasibətlər təsdiq edir ki, multikulturalizm xalqımızın tarix boyu formalaşan milli keyfiyyətidir və bütün dövrlərdə cəmiyyətin yaşam tərzi olub. Bu gün isə reallıq odur ki, artıq multikulturalizmin Azərbaycan modeli formalaşıb və bu, mükəmməl örnək kimi ölkəmizdəki çoxsaylı fərqli etnik qrupların sülh şəraitində yaşamasına, bərabərhüquqlu fəaliyyətinə tam zəmin yaradır. Multikulturalizm elə bir siyasətdir ki, o, mədəni plüralizmi qəbul edir və onun inkişafına şərait yaradır. Bu, ölkə əhalisinin etnik irqi və dini müxtəlifliyindən asılı olmayaraq, onların hamısının hüquq və azadlıqlarına hörmətlə əlaqədardır. Multikultural cəmiyyətdə hər bir vətəndaş öz mədəniyyətini, dilini, ənənəsini, etnik və dini dəyərlərini inkişaf etdirmək, ana dilində məktəb açmaq, qəzet və jurnal dərc etdirmək sahələrində bərabər hüquqlara malikdir. Multikulturalizm siyasəti assimilyasiyanı inkar edən inteqrasiyaya aparır. Məhz buna görə də bu siyasəti təkcə siyasi elita deyil, eyni zamanda millətin yüksək vəzifə tutmayan digər nümayəndələri ilə yanaşı həm də milli və dini azlıqlar da dəstəkləyirlər. Multikulturalizm bir siyasət kimi öz mahiyyəti baxımından tolerantlıqla da sıx bağlıdır. O, müxtəlif mədəniyyətlərin paralel şəkildə yaşamasını qəbul edən tolerant cəmiyyətin başlıca xüsusiyyətlərindən biridir. Tolerant cəmiyyətdə multikulturalizm mədəniyyətlərin qarşılıqlı surətdə zənginləşməsinə, xalqları birləşdirən mədəniyyətin formalaşmasına səbəb olur ki, bu da insanların gələcək mədəni birliyi məqsədilə bir mədəniyyətin digər mədəniyyətə inteqrasiya prosesi ilə əlaqədardır.



Multikulturalizmin ölkəmizdə yaranma tarixinə nəzər yetirsək görərik ki, Sovet İttifaqının dağılması ilə bu regionlarda xaosun hökm sürməsinə baxmayaraq, Azərbaycan xalqının Ümummilli Lideri, müasir müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin böyük dövlətçilik təcrübəsi və titanik səyləri nəticəsində ölkəmizdə tolerantlıq mühiti qoruna bildi, bütün xalqlar arasındakı yüz illərə söykənən dostluq və birgəyaşayış münasibətlərinin ritmi pozulmadı. Həmin dövrdə ölkənin müharibə şəraitində olması, ağır iqtisadi-sosial vəziyyətlə yanaşı, hakimiyyət kürsüsü uğrunda gedən daxili mübarizə onu parçalanma təhlükəsi ilə üz-üzə qoymuşdu. Bu vəziyyət, şübhəsiz ki, dini duruma da təsirsiz ötüşmürdü. Daxili qarışıqlıqdan, yaranmış qeyri-sabit sosial-iqtisadi vəziyyətdən istifadə edən bəzi radikal dini cərəyanların nümayəndələri "xeyriyyəçilik" adı altında Azərbaycanda fəaliyyətə başladılar. Əslində, əksəriyyətinin niyyətinin saf olmadığı, şəxsi və ya qrup maraqlarına hesablandığı bir müddət sonra aydın oldu. Çox keçmədi ki, ölkədə dövlət-din münasibətlərinin hüquqi əsasları formalaşdırıldı. Vətəndaşların dini etiqad və vicdan azadlığı təmin olundu, bu sahə ilə bağlı qanunvericilik aktları beynəlxalq hüquq normalarına uyğunlaşdırıldı. Ölkədə dini durumun müsbət və münaqişələrdən uzaq məcrada inkişafı üçün əlverişli şərait yarandı. Eyni zamanda, dövlətin din siyasəti respublikamızın milli maraqlarını, onun vətəndaşlarının təhlükəsizliyini təmin etmək, ümumiyyətlə, cəmiyyətdə sabit vəziyyət yaratmaq üzərində kökləndi. Ölkəmiz dünyəvi, demokratik, hüquqi, unitar dövlət olmaqla yanaşı, həm də öz milli-mənəvi dəyərlərinə söykənən dövlətə çevrildi. Uzun illər ibadət ocaqlarının fəaliyyətinə, dini ayinlərin icrasına qoyulmuş qadağalar aradan qaldırıldı, yeni ibadət evlərinin və dini təhsil müəssisələrinin əsası qoyuldu. Bu sahədə yerli milli kadrların hazırlanmasına, dini maarifləndirmə işində əsasən daxili potensialdan istifadə olunmasına diqqət yetirilməsi vacib faktora çevrildi. Təbii ki, bütün bunlar Azərbaycan müstəqilliyini bərpa etdikdən bir müddət sonra xalqın təkidi ilə yenidən hakimiyyətə gələn ulu öndər Heydər Əliyevin dövlət-din münasibətləri sahəsindəki uğurlarının nəticəsi idi. Bu uğurların əsas səbəbi hər sahədə olduğu kimi, dinlə bağlı siyasətin də təməlindən sağlam, düzgün istiqamətdə qurulmasında idi. Məhz Ümummilli Liderin sayəsində din sahəsində sabitlik təmin edildi, milli-mənəvi dəyərlərə münasibət kökündən dəyişdi, xalqın keçmişinə, milli adət-ənənələrinə, dininə dövlət səviyyəsində qayğı göstərilməyə başlanıldı. Dövlət-din münasibətləri beynəlxalq hüquq normaları müstəvisində tənzimləndi, xalqımız öz milli, dini bayramlarını azad və sərbəst şəkildə qeyd etmək hüququ qazandı. Uzun illər baxımsız qaldığına görə dağılmış ibadət ocaqları yenidən bərpa edilib xalqın istifadəsinə verildi. Dini konfessiyalar arasında dözümlülük mühiti daha da inkişaf etdirildi. Ulu Öndər milliyyətindən, irqindən, dinindən asılı olmayaraq, Azərbaycanda məskunlaşan hər kəsin bütün sahələrdə hüquq bərabərliyinin dövlət tərəfindən təmin edilməsini prinsipial məsələ kimi bəyan etdi: "...Ölkəmizin vətəndaşları dini, irqi mənsubiyyətindən, siyasi baxışlarından asılı olmayaraq eyni hüquqlara malikdirlər və onların hüquqları Azərbaycan dövləti tərəfindən qorunur. Əmin ola bilərsiniz ki, biz bu prinsiplərimizə daim sadiq qalacağıq və Azərbaycan vətəndaşlarının din, dil mənsubiyyətindən və siyasi baxışlarından asılı olaraq bir-biri ilə münaqişəyə girməsinə gələcəkdə də yol verməyəcəyik".

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi iradəsi nəticəsində Azərbaycan tarixən sahib olduğu tolerantlıq və multikulturalizm ənənələrini hüquqi və siyasi müstəvidə yenidən bərpa etdi. Heydər Əliyev Azərbaycanın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçib və Öz uzaqgörən, müdrik siyasəti ilə əsrlər boyu formalaşan çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni mərhələyə qaldırdı. Birmənalı şəkildə qeyd etmək olar ki, Ulu Öndər Azərbaycan multikulturalizminin siyasi banisidir. Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə milli azlıqların ədəbiyyat, mədəniyyət, dil, tarix, adət-ənənələrinin qorunub saxlanmasına, inkişaf etdirilməsinə qanuni zəmin yaradıldı. Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsi ilə mənşəyindən, irqindən, dinindən və dilindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarına hörmət təmin olundu. Bununla yanaşı, Ulu Öndərin hakimiyyətə gəlməsindən sonra qəbul edilən bir çox qanunlarda Azərbaycan ərazisində yaşayan bütün milli azlıqların mədəni kimliyinə təminat verildi.

Azərbaycanın müstəqillik yolunda əmin addımlarla irəlilədiyi ilk illərdə ulu öndər Heydər Əliyevin ölkənin vahidliyi və bütövlüyünü təmin etməyin ən uğurlu modeli kimi Azərbaycançılığı dövlət siyasəti halına gətirməsi, həmçinin, XXI əsrin astanasında beynəlxalq miqyasda iqtisadi-siyasi sferada dayanıqlılığı və etibarlı tərəfdaş imici ilə qəbul edilən ölkəmizdə multikulturalizmin dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrilməsi Azərbaycan dövlətçilik tarixində imza atılan, dönüş xarakterli uğurlardan sayılır. Çünki Azərbaycançılığın inkişafı multikultural mühitdən kənarda reallaşa bilməzdi. Biri-birini ahəngdar şəkildə tamamlayan bu iki baxışlar sistemi dövlət maraqları ilə yanaşı, milli-mənəvi dəyərlər, mədəni və etnokonfessional müstəvidə müxtəlifliklər arasında harmonik uzlaşmanı təmin etməsi ilə səciyyələnir. Bu kontekstdə Azərbaycançılıq dövlət siyasətinin strategiyası olaraq Azərbaycan cəmiyyətinin bugününün və gələcəyinin müasir ideoloji qavranması ilə sıx birləşir. Azərbaycançılıq milli ideologiyanın əsası kimi müxtəlif xalqların, mədəniyyətlərin, ənənələrin, konfessiyaların üzvi surətdə birliyini təcəssüm edir. O, milli maraqları ifadə edən güclü dövlət hakimiyyətinə və yüksək milli intizama, formalaşan milli özünüdərkə əsaslanır, ən müxtəlif sosial təbəqələrdə anlaşma axtarır, millətin və dövlətin öz potensialından irəli gələn daimi, lakin qeyri-radikal islahatçılığı təbliğ edir. Azərbaycançılıq məfkurəsi multikultural münasibətlərin hakim olduğu Azərbaycan cəmiyyətində və ictimai-siyasi münasibətlərin qeyri-müəyyənliyi ilə diqqəti cəlb edən beynəlxalq aləmdə öz orijinallığı ilə seçilir. Hər iki məfhum bir-biri ilə üzvi vəhdət təşkil edən ideologiya və həyat norması kimi ölkədaxili ictimai-siyasi və sosial-mədəni münasibətlərin tənzimləyicisi və hərəkətverici qüvvəsi qismində çıxış edir, ziddiyyətlər və təlatümlər burulğanında siyasi maraqların diqtəsi altında hərəkət edən Qərblə Şərqin qovşağında qərar tutmuş Azərbaycanın alturist düşüncədən qaynaqlanan, bəşəri dəyərlərə ciddi önəm verən, mənəviyyatı və humanist prinsipləri bütün maraqların fövqündə saxlayan davranış tərzində öz aydın ifadəsini tapmışdır.

Məhz etnik-mədəni müxtəlifliklər arasındakı münasibətlərin düzgün tənzimlənməsi işində respublikamızın spesifik sülhsevər siyasətinin nəticəsidir ki, bu gün heç kim, hətta bizə ikili standartlar prizmasından yanaşmağı ənənəyə çevirmiş ölkələr də Azərbaycanda multikultural mühitin mövcudluğunu nəinki inkar edə bilmir, üstəlik bu sosial münasibət və dövlət siyasətinin dünya üçün nümunə olduğunu təsdiqləyirlər. Çünki tarixən Azərbaycan cəmiyyətinə xas olan fərqli mədəniyyət, din, dillərə ehtiram kimi humanist münasibətin dövlət tərəfindən inkişaf etdirilməsi istiqamətində həyata keçirilən çoxşaxəli fəaliyyət multikulturalizm fenomenini gerçək mahiyyətinə uyğun şəkildə dünya gündəmində aktuallaşdırıb.



***Amil CAVADOV,***
***Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Aparat rəhbəri***

# “Azərbaycan” qəzetinin biblioqrafik göstəricisi nəşr olunub

Bu yaxınlarda Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin Milli Mətbuat tarixi kafedrasının müdiri professor Cahangir Məmmədli ilə elmi işim barədə söhbətimiz zamanı çox dəyərli bir kitabdan bəhs etdi. Kitab Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin orqanı olan “Azərbaycan” qəzetinin (1918- 1920) tam külliyyatının biblioqrafik göstəricisindən ibarət idi. Nəşrin özünəməxsusluğu bir xeyli diqqətimi çəkdiyindən həm oxumaq, həm də oxunmasına nail olmaq üçün kitaba nacizanə bir rəy yazmaq barədə Cahangir müəllimlə məsləhətləşdim...

Məlum olduğu kimi “Azərbaycan” qəzetindəki materiallar Azərbaycan Cümhuriyyətinin bilavasitə tarixini əks etdirir. Qəzetin səhifələrində Azərbaycan Hökumətinin qərarları, Parlament üzvlərinin çıxışları, paytaxtda və bölgələrdə baş verən hadisələrin təfərrüatları, müxtəlif təhlillər, xatirələr öz əksini tapıb. Günümüzdə xüsusi əhəmiyyət kəsb edən Qarabağ, Zəngəzur bölgələrinə dair materiallar yer alır. Eləcə də Azərbaycan Cümhuriyyətinin xarici dövlətlərlə münasibətləri, dövrün ab-havası müfəssəl şəkildə qəzetin səhifələrində əks olunur. Bu baxımdan qəzetin müxtəlif vaxtlarda transliterasiyası Azərbaycan Cümhuriyyəti tarixşünaslığında yeni bir səhifə açır və gələcək tədqiqatlar üçün mühüm stimul olacağına inam böyükdür.

İlk dörd nömrəsi Gəncədə, sonrakı nömrələri Bakıda nəşr edilən “Azərbaycan” qəzetinin 15 sentyabr 1918-ci il 28 aprel 1920-ci il tarixləri arasında 443 nömrəsi çapdan çıxıb. Qəzetin redaktorları müxtəlif vaxtlarda Ceyhun bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli, Üzeyir bəy Hacıbəyli və Xəlil İbrahim kimi dövrün qabaqcıl ziyalıları olub. Qəzet əksəriyyətlə 4 səhifə həcmində çıxsa da, bəzi nömrələrdə səhifələrin sayı fərqlilik göstərir. Hər səhifədəki sütunların sayı və səhifələrin ölçüsü, qəzetin çap olunduğu 19 ay yarımlıq müddət ərzində bir neçə dəfə dəyişib. “Azərbaycan” qəzetinin nüsxələri Azərbaycan Respublikasının Milli Arxiv İdarəsində, Azərbaycan Respublikasının Dövlət Arxivində, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivində, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda və Azərbaycan Milli Kitabxanasında pərakəndə halda saxlanılmaqdadır. Qəzetin müasir oxucu üçün əlçatan olması tariximizin Cümhuriyyət dövrü kimi zəngin səhifəsinin öyrənilməsi baxımından çox əhəmiyyətlidir.

Azərbaycan xalqının tarixi mirasını qorumaq və gələcək nəsillərə ötürmək işinə töhfə vermək olduqca əhəmiyyətli bir məqamdır. Bu baxımdan filologiya üzrə fəlsəfə doktoru Lalə Osman qızı Hacıyevanın hazırladığı biblioqrafik göstərici həmin külliyyata faydalı əlavə kimi qiymətləndirilə bilər. Pərakəndə şəkildə respublikanın müxtəlif kitabxanalarında saxlanılan “Azərbaycan” qəzetinin saylarını arayıb toplayan L.Hacıyeva, biblioqrafik göstəricilər qarşısında qoyulan qaydalara uyğun iş aparıb və mükəmməl biblioqrafik göstərici ərsəyə gətirib.

Kitabda Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin rəsmi orqanı olan “Azərbaycan” qəzetinin (1918-1920) səhifələrində işıq üzü görmüş bütün məqalə və yazıların biblioqrafiyası toplanılıb. Orijinal mətn ərəb qrafikalı əlifbadan latın qrafikalı müasir Azərbaycan əlifbasına köçürülüb. Biblioqrafiya ilə yanaşı mətndə çətin anlaşılan ərəb-fars sözlərinin lüğəti kitaba daxil edilib. Bu baxımdan nəşr jurnalistlər, ədəbiyyatşünaslar və tarixçilər üçün qiymətli mənbə sayıla bilər.

Lalə xanımın kitabın ön sözündə qeyd etdiyi kimi, bu mürəkkəb işdə o, yalnız olmayıb. Kitabın nəşrinə Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar institutunun professoru Raqub Kərimova və şərqşünas-alim, tərcüməçi Azad Ağaoğlu, habelə əlyazmanın transliterasiya redaktoru və lüğətin tərtibçisi, BDU-nun Jurnalistika fakültəsinin dekan müavini Samir Xalidoğlu böyük dəstək göstəriblər.




Xatırlatmaq yerinə düşərdi ki, bir neçə il əvvəl “Bakinski listok”un izinə düşmüş BDU-nun jurnalistika fakültəsinin əməkdaşı, filologiya elmləri namizədi, tədqiqatçı Lalə Hacıyeva ciddi axtarışlar nəticəsində qəzetin nüsxələrini Rusiya Milli kitabxanasında (Sankt-Peterburq) aşkar edə bilmişdi. Bununla mətbuat tariximizin araşdırılması işinə ciddi töhfə vermiş Lalə xanım həm də fədakarlıq göstərərək qəzetin bütün nüsxələrini qısa izah və şərhlərlə birlikdə kitab şəklində ictimaiyyətə təqdim etmişdi. Yəni H.Zərdabinin sizə təqdim edilən ilk mətbu məqaləsinin üzə çıxması da L.Hacıyevanın bu xidməti sayəsində mümkün olub.

Bu mənada, Lalə xanımın mətbuat tarixi və arxivlər sahəsindəki fəaliyyətini olduqca təqdirəlayiq hesab etmək olar.

**Günel ABBAS**



# İmpiçment tələbi təmin edildi...

## Zurabişvili isə getmək istəmir

Xəbər verildiyi kimi, Gürcüstanın Konstitusiya Məhkəməsi prezident Salome Zurabişvilinin impiçmenti tələbini təmin edib. Qərarı məhkəmənin sədri Merab Turava canlı efirdə oxuyub. Qeyd olunub ki, məhkəmə hakim “Gürcü Arzusu - Demokratik Gürcüstan” partiyasının tələbini təmin edib və respublika prezidenti Salome Zurabişvilinin hökumətin icazəsi olmadan xarici səfərlərinə görə konstitusiyanı pozduğunu müəyyən edib. “Gürcüstan Konstitusiya Məhkəməsi müəyyən edib ki, prezident Salome Zurabişvili 2023-cü il avqustun 31-də, sentyabrın 1 və 6-da xaricə işgüzar səfərlər zamanı hökumətin razılığı olmadan beynəlxalq münasibətlər sahəsində hüquq və səlahiyyətlərini həyata keçirib. Gürcüstan Konstitusiyasının 52-ci maddəsinin 1-ci hissəsinin “a” yarımbəndini pozub”, - deyə Turava bildirib.

**Çevriliş xəbərdarlığı...**

Gürcüstanda artıq aylardır ki, davam edən bu siyasi böhran pik həddə çatmaqdadır. Xatırladaq ki, bir müddət öncə hətta Gürcüstanda dövlət çevrilişinin planlaşdırılması ilə bağlı informasiyalar da yayılmışdı. Bu informasiyalarda USAID-in (ABŞ Beynəlxalq İnkişaf Agentliyi) Gürcüstanla bağlı fərqli planlarından bəhs olunurdu. Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili bildirmişdi ki, bu, Amerikanın Gürcüstana yardımı tarixində qara gündür: “USAID Amerika xalqının pullarının niyə başqa ölkəyə iğtişaşları qızışdırmaq, iğtişaşlar planlaşdıran və zorakılıq törədən qrupları hazırlamaq üçün getdiyini izah etməlidir”“.

Beləliklə, Prezident ilə hökumət arasında gedən “mübarizə” yeni mərhələyə qədəm qoyur. Artıq proses impiçmentə qədər gedib-çıxıb...

**Fransa diplomatı Gürcüstana necə prezident oldu?**

Qeyd edək ki, Salome Zurabişvili ölkəsinin tarixində ilk qadın prezident kimi tarixə düşüb. O, 2018-ci ilin noyabrında keçirilən prezident seçkisinin ikinci turunun nəticələrinə görə, qələbə qazanıb. Xatırladaq ki, həmin dövrdə hakim partiya məhz Salome Zurabişvilini dəstəkləmişdi və bu onun prezident seçilməsinə əsaslı rol oynamışdı. 59,52 faiz səslə Gürcüstan prezidenti seçilən Zurabişvilinin rəqibi isə “Güc birlikdədir” müxalifət hərəkatının namizədi Grigol Vaşadze olmuşdu.

Fransada gürcü mühacirinin ailəsində doğulmuş Salome Zurabişvili Rusiya ilə Qərb arasında balanslı siyasət tərəfdarı kimi tanınırdı. O, prezident seçilməmişdən öncə 30 il Fransa XİN-də diplomat kimi fəaliyyət göstərmişdi. Zurabişvili Gürcüstana ilk dəfə 2003-cü ildə Fransanın Gürcüstandakı səfiri kimi gəlmişdi. Lakin 2004-cü ilin martında Zurabişvili artıq prezident Mixail Saakaşvilinin sərəncamı ilə “inqilabçı hökumət”də ölkənin xarici işlər naziri təyin edildi. Elə həmin vaxt gürcü vətəndaşlığı alan Zurabişvili, bununla yanaşı fransız vətəndaşlığını da qoruyub saxlayıb. Xarici işlər naziri vəzifəsində Zurabişvili bir ildən artıq fəaliyyət göstərib. 2005-ci ildə nazirlikdən kənarlaşdırılan Salome Zurabişvili Saakaşviliyə müxalifət mövqeyinə keçib. 2010-cu ilə qədər “Gürcüstanın yolu” müxalifət partiyasına rəhbərlik edən Zurabişvili daha sonra BMT-nin İrandakı vəziyyət üzrə monitorinqinin ekspert qrupuna daxil olub. 2016-cı ildə keçirilən parlament seçkilərində Tbilisidəki majoritar dairələrdən birində müstəqil namizəd kimi iştirak edən Zurabişvili hakim partiyanın dəstəyilə parlamentə seçilib. Qeyd edək ki, Zurabişvili 2013-cü ildə keçirilən prezident seçkilərində də iştirak etmişdi və qeydiyyatdan keçmək barədə müraciəti ikili vətəndaşlığa görə rədd edilmişdi. 2018-ci ilə qədər isə Fransa vətəndaşlığından imtina etmişdi.

Maraqlı burasıdar ki, Zurabişvili xalq tərəfindən səsvermə ilə seçilən sonuncu prezident də ola bilər. Belə ki, Gürcüstanın yeni Konstitusiyasına görə, növbəti prezident 2024-cü ildə 300 seçicidən ibarət Seçki Kollegiyası tərəfindən müəyyənləşməlidir. Prezidentin səlahiyyətlərinin məhdudlaşdırılması da məhz yeni Konstitusiyada öz əksini tapıb...

**Heç yerə getmirəm...**

Gürcüstan prezidenti isə Konstitusiya məhkəməsinin qərarı ilə razılaşmaq fikrində deyil. O, istefa verməyəcəyini öncədən bəyan edib. İctimaiyyətə xüsusi müraciəti zamanı bildirib ki, heç yerə getməyəcək: “Mən heç yerə getmirəm. Mən istefa vermirəm, verməyəcəyəm. Mən ömrümün sonuna qədər olduğum yerdə qalacam”.

Onun sözlərinə görə, bu gün Gürcüstanın Avropa gələcəyi və demokratiyası bir daşla öldürülüb. “Heç yerə getmirəm. Mən istefa vermirəm, verməyəcəyəm. Mən bütün həyatım boyu olduğum yerdə qalacam, mən Avropa və demokratik gələcəyimiz üçün burada dayandım. Bu gün Avropanın gələcəyi və demokratiyası bir daşla öldürüldü. Hakimiyyətin qolları arasında balans olmayan yerdə o ölkə demokratik ölkə sayıla bilməz”, - Salome Zurabişvili bildirib.

Xatırladaq ki, bir sıra xarici, əsasən də qərbyönümlü KİV-lərdə Zurabaşvilinin müdafiəsi ilə bağlı fikirlər səsləndirilir.

**SADİQ**

# Avropa Parlamentinin erməni “sevgisi”

*Nardar BAYRAMLI*

Ermənistanın baş naziri Nikol Paşinyan Fransanın Strasburq şəhərinə səfər edərək Avropa Parlamentində çıxış edib. Ermənistanın Avropa İttifaqı ilə əlaqələri inkişaf etdirməyə maraqlı olduğunu deyən Paşinyanın sözlərinə görə, İrəvan bu münasibətləri regional əməkdaşlıq və regional ölçülərlə müqayisə etmək istəmir. O deyib ki, Ermənistanın Avropa İttifaqı ilə əlaqələri yeni elementlə - təhlükəsizliklə tamamlanıb. Söhbət avropalı müşahidəçilərin mülki missiyasından gedir: “İrəvan bu yaxınlarda Roma Statutunu ratifikasiya etdi, bu, bizim beynəlxalq hüquq nizamının stimullaşdırılması və inkişaf etdirilməsində maraqlı olduğumuzu göstərir”.

Paşinyan Avropa Parlamentində müttəfiqlərin hərəkətsizliyindən də şikayətlənib. Onun fikrincə, bu, Ermənistanın suverenliyinə əsas təhdidlərdən biridir. Aydındır ki, erməni baş nazir “müttəfiqlərin hərəkətsizliyindən” bəhs edərkən Rusiyanı nəzərdə tutur. O, həmçinin xarici qüvvələrin Ermənistan daxilində qeyri-sabitlik yaratmaq istəmələrindən də şikayətlənib, eləcə də Qarabağdakı Rusiya sülhməramlılarını hərəkətsizlik nümayiş etdirməkdə günahlandırıb.



Paşinyan, həmçinin Ermənistanın ilin sonuna qədər Azərbaycanla sülh müqaviləsi imzalamağa hazır olduğunu deyib. “İrəvan Bakının Sovet Baş Qərargahının son xəritələri əsasında sərhədlərin delimitasiyasına başlamağa razılıq verməsini gözləyir. Biz suverenlik prinsipi əsasında regional nəqliyyat kommunikasiyalarını açmağa və öz ərazimizdə təhlükəsizliyi təmin etməyə hazırıq”, - deyə o qeyd edib.

Göründüyü kimi, sülhdən danışan Ermənistan baş naziri əməldə regionda gərginliyin mövcudluğu üçün hər şey edir. 3 il ərzində Zəngəzur dəhlizinin açıqlması yönündə heç bir addım atılmaması da bunu təsdiqləyir.

Məsələnin digər tərəfi Avropa Parlamentinin 30 il Azərbaycana qarşı işğalçılıq siyasəti yürüdən bir ölkənin rəhbərinə “qucaq açması”dır.

Avropa Parlamenti ənənəsinə sadiq qalaraq Ermənistanın vəkili rolunu oynayır, ölkəmizə qarşı qərəzli mövqeyini davam etdirir. Eləcə də təşkilat dəfələrlə ölkəmizə qarşı əsassız qətnamələr qəbul edib. Ermənistanın işğalçılıq siyasətinin davam etdiyi illərdə də Avropa Parlamenti təcavüzkarın ruporu qismində özünü təsdiqləyib. Bu yaxınlarda qəbul edilən sonuncu qətnamədə də Avropa Parlamenti “erməni sevgisi” nümayiş etdirib.

Nəzərə alaq ki, Paşinyan Avropa Parlamentində 44 günlük müharibə dövründə Ermənistanın Gəncə əhalisinə qarşı terror hücumunun üçüncü ildönümünü günündə çıxış etdi. Yəqin ki, bu təsadüf deyil, erməni xisləti və onların havadarlarının düşünülmüş addımıdır. Hansı ki, üç il törədilmiş Gəncə terrorunda 15 nəfər mülki insan həlak olmuş, 55 nəfər isə yaralanmışdı. Terror hücumu nəticəsində çoxlu sayda  mülki infrastruktura da ziyan dəymişdi. Bütün bunlar isə Avropa İttifaqının demokratik dəyərlərdən, obyektivlikdən və beynəlxalq hüquqdan tamamilə uzaq olduğunu göstərir, həmçinin bölgədə gedən proseslərdə işğalçıya dəstək verilməsinə xidmət edir. Maraqlı olan hal budur ki, Avropa məkanının bir sıra iqtisadi və təhlükəsizlik yönümlü təşkilat və institutları Azərbaycanla enerji təminatı sahəsinə əməkdaşlıq etdiyi halda, Avropa İttifaqı Brüssel sülh gündəliyi çərçivəsində ölkəmizin mövqeyini dəstəklədiyi bir zamanda, bunun əksinə olaraq AP tərəfindən belə qərəzli mövqe nümayiş etdirilir. Əslində, bu mövqeyi ilə Avropa Parlamenti erməni lobbisinin əlində alətə çevrildiyini çoxdan sübut edib.

Hazırda bölgədə Azərbaycan tərəfindən sülh gündəliyi üzrə əməli tədbirlər həyata keçirildiyi bir zamanda belə addımların Azərbaycana qarşı heç bir siyasi, iqtisadi və digər təsir gücü olmayacaq. Son zamanlar Avropa Parlamentinin rəhbərliyində korrupsiya faktlarının aşkara çıxarılması, bu təşkilatın sifarişlər əsasında qətnamələr hazırlamasının bariz nümunəsi kimi qiymətləndirilə bilər. İkili standartlar, selektiv yanaşma, reallıqları gözə almamaq və işğalçıya dəstək artıq çoxdan bu təşkilatın fəaliyyət prinsipinə çevrilib.

## Əli Kərimli özünü necə ifşa edir?

# Erməni yalanlarının təbliğatçıları...

Azərbaycan dövlətinə və xalqına düşmən münasibət bəsləyən redikül müxalifət qazanılan uğurları, əldə olunan nailiyyətləri həzm edə bilmir. Ermənipərəst mahiyyətdən qurtula bilməyən Əli Kərimli və dəstəsi bunu artıq özlərində xəstəlik səviyyəsinə çatdırıblar - birmənalı olaraq qəbul etməmək, hər şeyi qara rəngdə görmək, qərəz və yalan, əsassız “arqumentlərlə” silahlanaraq dövlətin milli maraqlara əsaslanan siyasətinə zidd mövqe tutmaq “siyasətlə məşğul olmaq” sayıla bilməz.

Əli Kərimlinin tuduğu mövqe də birmənalı şəkildə xəyanətə, erməni təbliğatına söykənir və antimilli xarakterə əsaslanır. AXCP sədrinin Vətən müharibəsindən sonrakı dövrdə qələbəni “yarımçıq” adlandırması, antiterror tədbirlərindən sonra isə baş verənləri fərqli rakursda “qiymətləndirməyə” çalışması bir mətləbdən xəbər verir - bu şəxs erməni lobbisinin təsiri altındadır və heç bir zaman Azərbaycanın uğurlarına sevinməyəcək. AXCP sədrinin “Toplum TV”-yə müsahibəsi də dediklərimizi təsdiqləyir. Qazanılan qələbəni və bu qələbəyə gedən yolu naşı və xaincəsinə “ehtimallarla” “dəyərləndirməyə çalışan” xəyanətkar Kərimli uğurlu nəticəni gözardı edir - Azərbaycan xalqının, Azərbaycan Ordusunun, Azərbaycan Prezidentinin zəhmətini dəyərləndirə bilmir. Siyasətin dəqiqliyi və çevikliyi sevdiyini və zamana həsablandığını “unudan” və ya ümumiyyətlə, bilməyən Kərimli ona əzbərlətdirilən “fransız lüğətindən” olan “cümlədən” əl çəkmir - yeri gəlmişkən, Əli Kərimlinin aldığı erməni pullarına şərik olanlar da sosial şəbəkələrdə tutuquşu mahiyyəti ilə eyni “yalanı” və gülünc “arqumenti” tirajlamağa çalışırlar. Bu isə onu göstərir ki, Azərbaycan dövlətinin uğurlarına qarşı heç hansı bir kəsərli arqument tapa bilməyən Kərimlinin fransız başbilənləri AXCP sədrinin başına belə “torba keçirib” onu biabır edirlər. Adam əldə oyuncaq olduğunun fərqində belə deyil - “fransız ipçi”ləri onu ən düşük “arqumentlərlə” cəmiyyətə ifşa edir.

Kərimli müsahibəsinin sonunda başqa hava çalır - o, əslində, nə qədər böyük bir zəfərin qazanıldığının fərqindədir, sadəcə olaraq, bunu etiraf etmək cəsarəti yoxdur. O narahatdır ik, xalq onların yalanlarını görür və onların “siyasi buqələmunluğunun” fərqindədir. Azərbaycanın suverenliyinin təmin edilməsi, ən əsas ümummilli problemimizin həll edilməsi Kərimli kimi “yalana bürünənləri” ictimaiyyət qarşısında siyasi çılpaq vəziyyətə salır. O, bunu görür, sadəcə, etiraf etməyə cəsarət tapa bilmir.

Qeyd edildiyi kimi, Kərimlinin başçılıq etdiyi xəyanətkar dəstəyə də eyni direktivlər verilib, eyni “tezislər” üzərindən danışmaq tapşırılıb. Təsadüfi deyil ki, dünənə qədər “qələbəni yarımçıq” sayanlar bu gün “qələbənin təmini niyə 30 il çəkdi?” sualını tirajlayırlar. Onların cavabı özlərindədir - bir illik AXC-Müsavat hakimiyyətinin ölkəyə vurduğu ziyanı, etdiyi pisliyi 30 ildə ancaq aradan qaldırmaq mümkün oldu. Onlar bunu görürlər, bilirlər - sadəcə, dilə gətirməkdən qorxurlar. Yoxsa, Ə.Kərimli onları “fransız maliyyəsi” siyahısından çıxarar. Bu insanlar erməni pulları uğrunda erməni təbliğatına nökərçilik etməyi belə özlərinə rəva bilirlər, həqiqəti və ədaləti göz ardı etməyi bacarır. 2020-ci ildə Vətən müharibəsi günlərində Gəncəyə, Bərdəyə, Tərtərə edilən xain hücumlar mülki insanlarımızı, körpələrimizi qanına qəltan etmişdi. Bu qətliamın əmrini verən Araik indi Azərbaycan zindanındadır. İçimizdəki xainlər isə az qala erməniyə haqq qazandırmaq üçün “mübarizə aparırlar”. Tofiq Yaqublu deyir ki, 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun zərbələri nəticəsində Xankəndidə mülki əhali də vurulmuşdu. Nə qədər utanmayasan ki, belə söz deyəsən...

Ermənin tapıb deyə bilmədiyini deyir Tofiq Yaqublu. Təsəvvür edin ki, belə bir şey yaşanmış olsaydı, indi ermənilər bunu əllərində bayraq edib bir ucu Paris, bir ucu Brüssel, bir ucu Los-Anceles haray qaldırmazdımı? Belə bir “fakt” olsaydı, Ermənistan gündə 10 dəfə BMT TŞ-nin qapısını döyməzdimi?

Görəsən, bu boyda yalanı deməyə T.Yaqublunu nə məcbur edib? Axı, xalqına, dövlətinə şər atmaq, onu ləkələməyə çalışmaq bu qədər asan olmamalıdır...

**P.İSMAYILOV**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

Azərpoçt Poçtdaşıma Mərkəzi - 0125984955, 0552004544
Azərmətbuat ASC - 0124411991, 0124404694
Səma MMC - 0125940252, 0503336969
Pressalnform MMC - 0703400100, 0504560835
Qaya MMC - 0125667780, 0502352343
Qasid MMC- 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898

“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
Ziya LTD - 0124977696, 0503067744

**01.01.2024-cü il tarixdən etibarən qəzetin qiyməti 0,60 AZN təşkil edəcək.**
**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**








## “Nar”dan yeni abunəçilər üçün xüsusi endirim: FULL 6 yarı qiymətə!

İndi yeni abunəçilər “Nar”-ın ən çox seçilən tariflərindən biri olan FULL 6-nı yarı qiymətə əldə edə bilərlər. Tarifə 1 illik abunə olmaq istəyənlər sadəcə 6 ayın abunə haqqını ödəməklə 50% güzəşt əldə edəcəklər.

Həmçinin 3 və 6 aylıq abunə olmaq istəyənlər də endirimdən istifadə edib nəzərdə tutulan xərclərinə müvafiq olaraq 30% və 40% qənaət edəcəklər.

Xüsusi endirimli FULL 6 tarifi abunəçilərə 120 dəqiqə danışıq, 600 MB internet və əlavə olaraq sosial şəbəkələrdə yazışmaq üçün 1GB internet trafiki təklif edir. Tarifə qoşulmaq üçün “Nar”ın satış və xidmət mərkəzlərində yeni nömrə əldə etmək kifayətdir.

Endirimli FULL 6 tarifi çərçivəsində təqdim olunan bonusların qalığı da digər bütün FULL tariflərində olduğu kimi yanmır və növbəti aylara keçir. FULL 6 haqqında daha ətraflı: nar.az/full-6/

“Nar” hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. “Nar” son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.


# Vətəndaş cəmiyyətində yeni çağırışlar

## İctimai Şuraların yaradılması effektivdir


Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu” istiqaməti üzrə hazırlanmışdır**


*Günel ABBAS*

Respublikamızda iki mühüm istiqamət - hüquqi dövlət quruculuğu və fəal, güclü vətəndaş cəmiyyətinin formalaşdırılması bir-birini tamamlayır. Respublikamızda 1995-ci ildə referendum yolu ilə qəbul olunan Konstitusiya və dövlət başçısının imzaladığı digər sənədlərlə hüquq sisteminin qabaqcıl dünya təcrübəsi əsasında təkmilləşdirilməsi, demokratik prinsiplərin həyat normasına çevrilməsi üçün münbit zəmin formalaşdırılıb. Bütövlükdə, ölkəmizdə qanunçuluğa əsaslanan idarəetmə mexanizminin daha səmərəli formalarının yaradılmasını hədəfləyən islahatlar davamlı səciyyə daşıyır.

Eyni zamanda, dövlət ölkədə fəal vətəndaş cəmiyyətinin qurulmasına güclü siyasi iradə nümayiş etdirir. Prezident İlham Əliyev müxtəlif auditoriyalar qarşısında etdiyi çıxışlarında bütün sahələrdə ictimai iştirakçılığın və ictimai nəzarətin gücləndirilməsinin önəmini dəfələrlə diqqətə çatdırıb. Ölkədə fəal vətəndaş cəmiyyətinin formalaşdırılması dövlətin müəyyənləşdirdiyi prioritetlərlə üst-üstə düşür. İdarəetmədə səmərəliliyin təmin olunması, inklüzivliyin və vətəndaş məmnunluğunun artırılması, korrupsiyanın əhatə dairəsinin daraldılması, problemlərin operativ qaydada aradan qaldırılması kimi hədəflərə nail olunmasında ictimai iştirakçılığın gücləndirilməsi ən effektiv mexanizmlərdən biri qismində çıxış edir.

Müxtəlif dövlət qurumlarının tərkibində ictimai şuraların yaradılması bunun ən aydın nümunələrindən biridir. İctimai şuralar qurumlarda həyata keçirilən tədbirlərdə vətəndaş cəmiyyəti institutlarının iştirakının təmin edilməsi, ictimai iştirakçılığın genişləndirilməsi və bu qurumlarla ictimaiyyət arasında səmərəli qarşılıqlı fəaliyyətin daha da inkişaf etdirilməsi məqsədilə yaradılıb. Üzvləri arasında QHT nümayəndələrinin də yer aldığı şuralar artıq bir neçə ildir ki, qərarların qəbulu zamanı ictimai rəyin öyrənilməsi, ictimaiyyətlə məsləhətləşmələrin təşkili kimi digər bir çox sahədə səmərəli, uğurlu fəaliyyət göstərirlər.

**Şəbəkələr genişlənir**

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin üzvü Azər Badamov “Yeni Azərbaycan” qəzetinə açıqlamasında bildirib ki, dövlətimiz tərəfindən diqqət mərkəzində saxlanılan məsələlərdən biri də mərkəzi və yerli icra hakimiyyəti, eləcə də yerli özünüidarəetmə orqanlarına ictimai nəzarətin həyata keçirilməsidir: “İctimai iştirakçılıq haqqında” qanunun 2014-cü ildə qüvvəyə minməsi ilə bu fəaliyyət daha da sürətləndi. Qanunun qəbul edilməsi ilə müvafiq strukturlar yanında ictimai şuraların yaradılması məcburi xarakter daşıdı. Bu məsələnin dövlət üçün nə dərəcədə əhəmiyyətli olduğunu cənab Prezident öz çıxışlarında dəfələrlə qeyd edib”.




A.Badamov şuraların fəaliyyəti nəticəsində əldə edilən nailiyyətlərdən də söz açıb: “Bu gün biz sosial şəbəkələr üzərindən vətəndaşların hansısa şikayətlər və ya təkliflər səsləndirməsinə tez-tez şahidlik edirik. İctimai Şuraların üzvləri operativ şəkildə paylaşımlarda qeyd edilən məsələlərin həlli üçün aidiyyəti şəxsləri məlumatlandırırlar, lazım gəldikdə müxtəlif müzakirələr təşkil edirlər. Mərkəzində Azərbaycan vətəndaşı dayanan dövlət siyasətinin uğurlu addımlarından biri olan İctimai Şuraların yaradılmasında, fəaliyyətində də əsas məqsəd vətəndaş məmnunluğunun artırılmasıdır”.

“Artıq bir neçə ildir ki, İctimai Şuralar öz fəaliyyətlərini davam etdirirlər. Vətəndaşların fikirlərinin, təklif və şikayətlərinin öyrənilməsi, ictimaiyyətlə əlaqələrin qurulması kimi bir çox önəmli məsələlərdə şura üzvləri öz müsbət töhfələrini verirlər. Əminəm ki, qarşıdakı dövrlərdə də bu müsbət tendensiya davam edəcək”, - deyə millət vəkili fikirlərinə əlavə edib.

**Təkmilləşdirilməyə ehtiyac var**

Müasir İnkişaf İctimai Birliyinin sədri Mübariz Göyüşlü də “Yeni Azərbaycan”a açıqlamasında İctimai Şuraların yaradılmasının çox gözəl bir mexanizm olduğunu deyib. Birlik sədri İctimai Şuraların effektiv fəaliyyət istiqamətində səylərini müsbət qiymətləndirərək bunun təqdirəlayiq olduğunu diqqətə çatdırıb: “Cənab Prezidentin də dediyi kimi, vətəndaşların ictimai nəzarətinin təşkili prosesinin bir tərkib hissəsidir. Əksər qurumlarda - nazirliklərdə, təhsil müəssisələri və s. - İctimai Şuralar yaradılıb. Şuraların bir çoxunun effektiv şəkildə fəaliyyət göstərmək üçün səylərini görürük. Onların bu cəhdləri təqdirəlayiqdir. Lakin əfsuslar olsun ki, bəzi ictimai şuralarda passivlik müşahidə olunur. Seçilənə qədər təbliğat aparırlar, amma seçildikdən sonra onların hər hansı bir fəaliyyəti olmur. Bəzilərinin isə təklif, tövsiyyə, qeyd və iradları qurumlar tərəfindən qəbul edilmir. Düşünürəm ki, ictimai şuraların mövcudluğu çox gözəl bir institutdur, prosesdir. Onların yaradılmasında da məqsəd məhz bundan ibarətdir”.

“Proseslərin daha da təkmilləşməsinə ehtiyac var. Sədrlərin daha da aktiv olması, müəyyən edilən tələblərin yerinə yetirilməsi imkanlarının artırılması lazımdır. Bəzi məqamlarda cəmiyyətin onlardan gözlədiyi tələblərə cavab verə bilmirlər. Bu barədə zaman-zaman yuxarı rəhbər orqanların nümayəndələrinin də müəyyən qeydlərini, eyhamlarını eşidirik”, - deyə M.Göyüşlü fikirlərinə əlavə edib.

Deyilənlər bir daha onu deməyə əsas verir ki, vətəndaşların dövlət idarəçiliyində iştirakı, qəbul edilən qərarlarda vətəndaş cəmiyyəti institutlarının rəyinin öyrənilməsi, eləcə də digər analoji səbəblər baxımından İctimai Şuraların olduqca böyük əhəmiyyəti vardır.

*İdman*

## Azərbaycan Premyer Liqasında daha iki turun proqramı bəlli olub




Futbol üzrə Azərbaycan Premyer Liqasında XIII və XIV turun oyun cədvəli açıqlanıb.

AZƏRTAC Peşəkar Futbol Liqasının rəsmi saytına istinadən xəbər verir ki, turun bütün matçları “CBC Sport” telekanalı vasitəsilə canlı yayımlanacaq.

Azərbaycan Premyer Liqası

XIII tur

10 noyabr (cümə)
19:00. “Araz-Naxçıvan” - “Kəpəz”
“Dalğa Arena”

11 noyabr (şənbə)
16:30. “Neftçi” - “Sumqayıt”
“Neftçi Arena”
19:00. “Turan Tovuz” - “Sabah”
Tovuz şəhər stadionu

12 noyabr (bazar)
16:30. “Zirə” - “Qəbələ”
Zirə İdman Kompleksinin stadionu
19:00. “Qarabağ” - “Səbail”
Tofiq Bəhramov adına Respublika Stadionu

XIV tur

24 noyabr (cümə)
20:00. “Sabah” - “Qarabağ”
“Bank Respublika Arena”

25 noyabr (şənbə)
16:00. “Qəbələ” - “Turan Tovuz”
Qəbələ şəhər stadionu
18:30. “Səbail” - “Kəpəz”
“ASCO Arena”

26 noyabr (bazar)
15:30. “Neftçi” - “Araz-Naxçıvan”
“Neftçi Arena”
18:00. “Sumqayıt” - “Zirə”
“Kapital Bank Arena”

## Dörd boksçumuz “Qızıl əlcək” beynəlxalq turnirində iştirak edəcək



Oktyabrın 18-də Serbiyanın Çaçak şəhərində boks üzrə “Qızıl əlcək” beynəlxalq turniri start götürəcək.

Azərbaycan Boks Federasiyasının mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, 4 gün davam edəcək yarışda Azərbaycan millisi də qüvvəsini sınayacaq.

Baş məşqçi Pedro Roke və böyük məşqçi Nəriman Abdullayev “Qızıl əlcək”də Ümid Rüstəmov (60 kiloqram), Ruslan Rüstəmov (63,5 kiloqram), Kamran Şahsuvarlı (75 kiloqram) və Alfonso Domingesə (86 kiloqram) şans verəcək.

Turnirdə Azərbaycanı Anar Nağdıyev hakim kimi təmsil edəcək.

Dünən səfərə yollanan komanda oktyabrın 22-də Bakıya qayıdacaq.



## UEFA-nın dəstəyilə keçirilən məşqçi kurslarına yekun vurulub

AFFA-nın təşkilatçılığı, UEFA-nın dəstəyi ilə keçirilən “D” kateqoriyalı məşqçi kurslarına yekun vurulub.

AZƏRTAC milli assosiasiyanın rəsmi saytına istinadən xəbər verir ki, Qusar Olimpiya İdman Kompleksində təşkil olunan kursun sonuncu günündə iştirakçılara müvafiq lisenziyalar verilib.

Lisenziyaları iştirakçılara Kütləvi Futbol Departamentinin rəhbəri Fərrux İsmayılov, AFFA-nın məşqçi kurslarının təlimatçıları İlham Əzizzadə və Dəyanət Əliyev təqdim ediblər.



## Canni De Byazi: Bu məğlubiyyət bizi dayandırmayacaq

Bu gün yaxşı oyun keçirdik. İlk hissədə nəticəmiz ürəkaçan olmadı, amma ikinci hissədə nisbətən toparlandıq. Ümumilikdə isə balansı saxlaya bildik.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan millisinin baş məşqçisi Canni De Byazi “Avro-2024”ün seçmə mərhələsində Avstriya yığmasına uduzduqları oyundan sonra təşkil olunan mətbuat konfransında deyib.

İtaliyalı mütəxəssis bildirib ki, komanda Avstriya millisinə qarşı yaxşı mübarizə apardı: “Oyunun son dəqiqələrində qol vurmaq üçün çox yaxşı fürsətimiz oldu. Toral Bayramov bu gün olduqca yaxşı oyun nümayiş etdirdi. Qol vurmağa layiq idi. Amma təəssüf ki, alınmadı, azarkeşlərimizi sevindirə bilmədik”.

Onun sözlərinə görə, rəqib təcrübəli və fiziki cəhətdən daha güclü idi: “İddialı komandaya qarşı son dəqiqəyə kimi mübarizə apardıq. Amma biz də inkişaf etmişik. Qapımıza vurulan qolların sayı çox olmadı, sadəcə, penaltiyə görə məğlub olduq. Estoniya ilə oyundan sonra komanda daxilində yorğunluq hiss olunurdu. Ona görə də futbolçular meydanda çəkinirdilər. Amma bu məğlubiyyət bizi dayandırmayacaq. Addım-addım inkişafa doğru gedəcəyik”.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 6831
Sifariş: 2734
“Kapital Bank”ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Günel Abbas